QARABAĞ AZƏRBAYCANDIR!

## Mehriban Əliyeva YUNESCO-ya dərs verdi!



4

## İlham Əliyev: “Biz 2027-ci ilədək Avropaya qaz təchizatını iki dəfə artırmaq fikrindəyik”



Prezident İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına səfər edib

2



Səs
№ 209 (6650) 16 noyabr 2022-ci il. Qiymәti 60 qәpik

# Azərbaycanın dünyəvilik modeli: multikulturalizm və tolerantlıq



5

## Sosial-iqtisadi inkişaf prosesi: Növbəti 8 ildə bizi nə gözləyir?




15

## “Azərbaycan Albaniya əlaqələri özünün inkişaf dövrünü yaşayır”



5

## Naxçıvan qovurması: söz vədəsinə çəkər...



13

## Türkiyəni hədəfə çevirən kimlərdir - Terrora necə cavab veriləcək?



## Əmək müqavilələri elektronlaşdırılır



# İlham Əliyev: "Biz 2027-ci ilədək Avropaya qaz təchizatını iki dəfə artırmaq fikrindəyik"

*Prezident İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına səfər edib*

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına dövlət səfərinə gəlib. Prezident İlham Əliyevin Albaniyanın paytaxtı Tiranadakı "Brigades" Sarayında rəsmi qarşılanma mərasimi olub. Azərbaycanın və Albaniyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb, Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.**

Daha sonra Prezident İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub. Görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub, fəal siyasi dialoqun həyata keçirildiyi bildirilib.

Söhbət zamanı Albaniyanın Baş naziri Edi Ramanın bu ilin aprelində Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi işində önəmi qeyd olunub, həmçinin iqtisadi və enerji sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Albaniya dövlətinin başçısı çıxış edib. Prezident Bayram Beqayın öz bəyanatında qeyd edib ki, bu, əlaqələrimizin tarixində ilk mühüm dövlət səfəridir. Azərbaycan Prezidenti ölkəmizə səfər edib. Albaniya Respublikasının Prezidenti Bayram Beqay qeyd edib ki, belə yüksək səviyyəli səfər münasibətlərimizin inkişaf etdirilməsində, xalqlarımız arasında əməkdaşlığın genişləndirilməsində qarşılıqlı iradəmizin təzahürüdür:



"Ölkələrimiz arasında aparılan dialoqa





görə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident, çox yaxşı haldır ki, Siz bu gün ölkəmizdəsiniz. Əslində, bu, qarşılıqlı maraq doğuran əməkdaşlığın yeni sahələrini açır. Albaniya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsinə gəldikdə, 2023-cü ildə biz əməkdaşlığımızın daha intensiv mərhələsinə qədəm qoyacağıq. Biz burada Azərbaycan Həftəsini keçirmək niyyətindəyik. Əslində, bu tədbir ölkənizin burada mədəni baxımdan təşviq olunması üçün önəmlidir. Biz, həmçinin burada ölkənizin səfirliyinin açılması ilə əlaqədar iradəsini bildirdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq və həmin addım ölkələrimiz arasında əməkdaşlığın yaxşı təzahürüdür.

Bu gün aparılan müzakirələr xüsusilə vacibdir, çünki biz gələcək üçün yeni istiqamətləri müəyyən edirik, bizim üçün maraqlı olan sahələri təyin edirik. Bununla qeyd etmək istərdik ki, Birgə Komitənin iclası əlaqələrimizi daha da möhkəmləndirə bilər. Beləliklə Albaniya enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsində olduqca maraqlıdır. Əlbəttə ki, enerji sahəsində İon-Adriatik boru kəməri Albaniyanı, Monteneqronu, Xorvatiyanı birləşdirərək, ölkələrimizin geosiyasi əhəmiyyətini artırır və regional, o cümlədən Avropa səviyyəsində qaz təchizatının şaxələndirilməsini nümayiş etdirir. Bilirik ki, bu sahədə ölkənizin sərmayə qoyuluşu baxımından təcrübəsi var. Albaniya, həmçinin öz ərazisində tranzit imkanlarından istifadəyə çox açıqdır və hazırdır. Qaz infrastrukturumuzdan bu məqsədlə tam istifadə olunmasını mümkün hesab edirik. Bu sahədə daha böyük nəticələrin əldə olunmasını səmimiyyətlə arzu edirik. Beləliklə, biz əməkdaşlığımızın yeni yollarını açırıq və bu məqsədlə Azərbaycan tərəfinin göstərəcəyi səyləri alqışlayırıq. Fikrimizcə, birgə işləyərək öz imkanlarımızı səfərbər edə biləcəyik və daha da genişləndirəcəyik.

Əslində, turizm ölkələrimizin iqtisadiyyatlarının digər mühüm sahəsidir. Azərbaycan uğurlu təcrübəni özündə əks etdirir. Biz bundan yararlana bilərik. Mən cənab Prezidentə bəyan etdim ki, bu sahədə Azərbaycan tərəfindən qoyulacaq sərmayələri yüksək dəyərləndirərdik. Eyni zamanda, mədəniyyət sahəsində birgə işləməliyik ki, xalqlarımız daha yaxın olsun, bir-birini tanısın. Bununla bağlı iki tərəf arasında yeni sazişlər imzalana bilər. Bilirik ki, mədəniyyət və incəsənət sahəsinə aid olan minlərlə eksponat nümayiş etdirilə bilər. Cənab Prezident, mən Sizə bildirdim ki, bu, irsimizin qorunmasına töhfə verəcəkdir. 2019-cu ildə baş vermiş zəlzələdə də göstərilən yardımı yüksək dəyərləndiririk.

İstərdik bildirək ki, Ukraynada gedən müharibə və onun nəticələrinə gəldikdə, biz ümumi mövqedən çıxış edirik: diplomatiya və dialoq irəliyə doğru aparan əsas yoldur. Bu, həmçinin Cənubi Qafqaz və digər bölgələr üçün də vacibdir. Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasına öz dəstəyini verib. Ukraynadakı müharibəyə gəldikdə, bəyan edirəm ki, biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik və istəyirik ki, bu məsələ sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın. Mən, həmçinin bildirdim ki, ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, BMT-də, Avropa Şurasında məhsuldar əməkdaşlıq aparılır. BMT Təhlükəsizlik Şurasına Albaniyanın namizədliyinə, o cümlədən ATƏT-in sədrliyinə dəstək verilməsi ilə bağlı müraciət etdim. Əlbəttə ki, namizədliyə gəldikdə, bizim əməkdaşlığımız bu baxımdan gələcəkdə də davam etdirilməlidir.

Digər məsələlərə gəldikdə, mən cənab Prezidentə bildirdim ki, Kosovo Albaniya üçün çox əhəmiyyətlidir və bu, nəinki sabitlik, həm də bütöv regionun tərəqqisi üçün vacibdir. Parlamentlərarası əməkdaşlığa gəldikdə, Albaniya və Azərbaycan arasında dostluq qrupları fəaliyyət göstərir. Bu istiqamətdə atılacaq addımlar çox ola bilər. İstərdik ki, parlamentlərimiz bir-biri ilə sıx əməkdaşlıq etsinlər."

Sonra Azərbaycan dövlətinin başçısı çıxış edib. Prezident İlham Əliyev öz bəyanatında əmin olduğunu bildirib ki, bu səfər Albaniya-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verəcək: "Biz Sizinlə bu gün təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və əmin olduğumuzu bildirdik ki, gələcək yaxın əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Biz 2027-ci ilədək Avropaya qaz təchizatını iki dəfə artırmaq fikrindəyik”

*Prezident İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına səfər edib*

Əvvəli Səh. 2

Siyasi dialoqa gəldikdə, Albaniya prezidentləri əvvəlki illərdə Azərbaycana dəfələrlə səfər etmişdilər. Bu il keçmiş Prezident Meta Azərbaycanda səfərdə idi. Eyni zamanda, bu ilin aprel ayında Baş nazir Edi Rama da bizim qonağımız idi. Bu gün mənim səfərim onu göstərir ki, siyasi dialoqun çox gözəl təzahürləri var və çox güclü dinamizm var. Yəni, bu sıx siyasi təmaslar, əlbəttə, bizim niyyətimizi, bir-birimizə olan marağı göstərir, eyni zamanda, imkan verir ki, çox önəmli məsələlər müzakirə edilsin.

Beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir. Siz qeyd etdiniz ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək həmişə qarşılıqlı olub, biz bunu çox yüksək qiymətləndiririk. Həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatlarını, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstəyi biz çox yüksək qiymətləndiririk.











Biz İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq öz əzəli torpaqlarımızı işğalçılardan azad etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik. Siz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə toxundunuz. Qeyd etməliyəm ki, bu qətnamələr 1993-cü ildə qəbul olunmuşdur. Ancaq bu qətnamələr 27 il ərzində icra edilmirdi. Ermənistan bu qətnamələrin icrasına maraq göstərmirdi, faktiki olaraq məhəl qoymurdu, beynəlxalq ictimaiyyət, beynəlxalq birlik isə sadəcə olaraq, buna göz yumurdu və Ermənistana hər hansı bir sanksiya tətbiq edilməmişdir. Baxmayaraq ki, dəfələrlə Azərbaycan məsələ qaldırmışdır ki, Ermənistana qarşı sanksiyalar tətbiq edilsin, Ermənistan cəzalandırılsın. Çünki Azərbaycan ərazisinin 20 faizini işğal etmək böyük cinayətdir və işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparmaq hərbi cinayətdir. Orada törədilmiş dağıntılar faktiki olaraq o torpaqları tamamilə cansız edib. Mən Sizə məlumat verdim ki, ermənilər işğal dövründə 67 məsciddən 65-ni yerlə-yeksan etmişlər, qalan iki məsciddə isə heyvan - inək, donuz saxlamışlar və bütün müsəlmanların hisslərinə toxunmuşlar.

Biz bu məsələni təkbaşına həll etdik, ədaləti bərpa etdik və azad edilmiş torpaqlarda indi Azərbaycan Bayrağı dalğalanır. Biz bu torpaqlara qayıtmışıq və bu torpaqlara həyat qayıdır. Xalqımız, dövlətimiz üçün əsas olan məsələdə ölkənizin bizə dəstək verməsi, əlbəttə ki, bizim üçün çox önəmlidir və bir daha buna görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən Sizin fikrinizə qoşuluram ki, iqtisadiyyat və sənaye üzrə yaradılmış müştərək işçi qrupu tezliklə birinci iclasını keçirməlidir. Çünki müzakirə ediləsi məsələlər çoxdur. Biz bu gün Sizinlə qaz sahəsində əməkdaşlıq barədə danışdıq, həm əldə edilmiş nailiyyətlər, həm də görüləcək işlər haqqında fikir mübadiləsi apardıq. Ancaq əməkdaşlıq üçün enerji sektorundan başqa da çox yaxşı imkanlar var - qarşılıqlı sərmayə qoyuluşu, Albaniya və Azərbaycan şirkətlərinin birgə fəaliyyəti, birgə müəssisələrin yaradılması, turizm, kənd təsərrüfatı, müasir texnologiyalar sahələri. Bilirəm ki, bütün bu sahələr Sizin ölkəniz üçün də və bizim üçün də prioritet təşkil edir. Ona görə, əminəm ki, biz bu istiqamətlər üzrə inamla addımlayacağıq.

O ki qaldı, qaz təchizatı məsələlərinə, Azərbaycan və Albaniya TAP layihəsinin üzvləridir və Cənub Qaz Dəhlizinin icrasında bizim ölkələrimiz çox önəmli rol oynayıblar. Azərbaycanın və Avropa İttifaqının sədrliyi ilə bu günə qədər keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bir çox toplantılarında Albaniya nümayəndələri həmişə çox fəal iştirak etmişlər. Bu gün Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır. Həmin Memorandum əsasında biz 2027-ci ilə qədər Avropaya gedən qaz təchizatını iki dəfə artırmaq fikrindəyik. Təbii ki, o qaz Albaniya ərazisindən keçəcək, beləliklə, Avropanın enerji təhlükəsizliyinə əlavə dəstək və töhfə veriləcəkdir.

Bizim qaz ehtiyatlarımız çox zəngindir. Hazırda həm TAP, həm TANAP qaz kəmərlərinin iki dəfə genişləndirilməsi məsələsi müzakirə olunur. Yəni, bu layihə - Cənub Qaz Dəhlizi cəmi iki ilə yaxındır ki, istismardadır. Amma artıq Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan bu hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Yəni, bu, onu göstərir ki, buna böyük ehtiyac var, tələbat var. Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən artıq etibarlı tərəfdaş kimi tanınır və qiymətləndirilir. Əlbəttə ki, biz də bu məsuliyyəti yaxşı başa düşürük.”

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tiranada ”Mother Albania” abidəsini ziyarət edib. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Məlumat verilib ki, Milli Qəhrəmanlar Xiyabanında yerləşən on iki metrlik ”Mother Albania” abidəsi 1971-ci ildə ucaldılıb. Nəhəng abidə Albaniya uğrunda canını qurban verərək həlak olmuş əsgərləri qoruyan bir ananı təcəssüm etdirir. Ana heykəli əlində dəfnə çələngi və ulduz tutub. Abidə üçmetrlik postament üzərində ucaldılıb. Postamentin üzərində ”Vətən şəhidlərinə əbədi eşq olsun!” sözləri yazılıb. Sonra dövlətimizin başçısı şəhərin mənzərəsini seyr edib.

Dünən Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub. Görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub, fəal siyasi dialoqun həyata keçirildiyi bildirilib.

Söhbət zamanı Albaniyanın Baş naziri Edi Ramanın bu ilin aprelində Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi işində önəmi qeyd olunub. İqtisadi və enerji sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

ANALİTİK + AKTUAL

# Mehriban Əliyeva YUNESCO-ya dərs verdi!

Sirr deyil ki, bir sıra təşkilatlar zaman-zaman Azərbaycana qarşı riyakar və ikiüzlü siyasət aparırlar. Belə təşkilatlardan biri də YUNESCO-dur. Azərbaycan torpaqlarının 30 ilə yaxın müddətdə erməni işğalına məruz qaldığı dövrlərdə həmin ərazilərdə tarixi və dini abidələrimizə qarşı törədilmiş erməni vandallığına, qəsbkarlığına qarşı bir dəfə də olsun etiraz səsini ucaltmayan bu təşkilatın indi açıq-aşkar ermənipərəstlik mövqeyi sərgiləməsi bir daha sübut edir ki,



**Nəzərə alsaq ki, Fransa, eləcə də bu ölkənin bir çox siyasi dairələri erməni lobbisinin ən güclü yuvası hesab olunur, bu zaman YUNESCO-nun anti-Azərbaycan fəaliyyəti tam çılpaqlığı ilə üzə çıxmış olur**

onun fəaliyyəti yalnız ikiüzlü siyasət üzərində deyil, həm də digər arzuolunmaz cəhətlərlə sıx bağlıdır.

### Ermənilərin bir çağırışı ilə Hadruta missiya göndərmək istəyən YUNESCO üçün Ağdam, Füzuli maraqlı deyil (?!)



Məsələn, təkcə bir faktı önə sürək və sual edək: YUNESCO hazırda nəyə görə məhz erməni işğalından azad edilmiş Hadruta missiya göndərmək üçün bu qədər dəridən-qabıqdan çıxır? Yaxud, YUNESCO hansı səbəblərə görə Ağdama, Füzuliyə, Qubadlıya, Zəngilana, Xocavəndə və s işğaldan azad edilmiş Azərbaycan torpaqlarına araşdırıcı missiya göndərməkdən imtina edir? Səbəbi bəllidir - dünyanı və dünya xalqlarının, xüsusilə müsəlman aləminin mədəniyyətlərini ayıran, onlara etinasız yanaşan, qütblərə bölən və təəssüf ki, get-gedə təsir dairəsi artan xristian klubu reallığı artıq öz iç üzünü daha qabarıq fonda nümayiş etdirməkdədir.

Və bütün bunların müqabilində gözlənilən addım atıldı - Azərbaycanın Birinci vitse-prezidenti, Mehriban xanım Əliyeva YUNESCO-nun xoşməramlı səfiri adından imtina etdi, bu təşkilatın baş direktoru, Fransanın keçmiş mədəniyyət naziri Odri Azula məktub göndərməsi ilə əslində öz haqlı, ədalətli etirazını bəyan etdi!

Bir daha aydın oldu ki, Azərbaycanın YUNESCO ilə sıx əlaqələr qurmasına, xüsusilə Mehriban Əliyevanın dünyanın, eləcə



də Qərbin mədəniyyət incilərinə həssas yanaşmasına, bir çox tarixi abidələrin bərpasına göstərdiyi ayrıca diqqətinə baxmayaraq, bu təşkilat Azərbaycanın çağırışlarına əhəmiyyət vermədi.

### YUNESCO üçün Azərbaycan xalqının mədəniyyət sərvətlərinin məhvə məruz qalması əsla və ümumiyyətlə, maraqlı deyilmiş..!

Üstəlik, YUNESCO mütəmadi olaraq Azərbaycan torpaqlarındakı erməni vandallığının, barbarlığının dəlil və sübutları ilə məlumatlandırılırdı, bu təşkilatın mütəxəssisləri ölkəmizə dəvət edilirdilər, ancaq edilən bütün cəhdlərə susqunluqla cavab verilirdi. Yəni fakt bu idi ki, YUNESCO üçün Azərbaycan xalqının mədəniyyət sərvətlərinin məhvə məruz qalması əsla və ümumiyyətlə, maraqlı deyilmiş..!

O da əbəs deyil ki, YUNESCO-nun Azərbaycana qarşı birtərəfli mövqe nümayiş etdirməsinin daha bir səbəbi kimi təşkilatın baş katibinin fransız olması göstərilir. Nəzərə alsaq ki, Fransa, eləcə də bu ölkənin bir çox siyasi dairələri erməni lobbisinin ən güclü yuvası hesab olunur, bu zaman YUNESCO-nun anti-Azərbaycan fəaliyyəti tam



çılpaqlığı ilə üzə çıxmış olur.

### Fransız KİV-ləri nədən yazırdılar?

Halbuki, həm də Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban Əliyevanın Avropanın tarixi memarlıq abidələrini təmir etməsi məhz Fransanın bir çox nüfuzlu mətbu orqanları tərəfindən böyük missiya kimi dəyərləndirmişdi.

Alzas bölgəsinin mərkəzi hesab edilən Strasburqda gündəlik nəşr edilən ”Alzasın son xəbərləri” qəzetində dərc olunmuş ”Azərbaycan xeyirxahlığı ” sərlövhəli məqalədə ölkənin ən qədim kilsələrindən olan Notr-Damın təmirinə yardım edilməsi üçün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərdiyi təşəbbüs yüksək qiymətləndirilmiş, Avropa Şurasının böyük dostu olan Azərbaycanın bu istiqamətdəki addımı təqdir olunmuşdu. Sözügedən məqalədə Heydər Əliyev Fondunun bir müddət əvvəl Versal sarayında iki abidənin təmirinə yardım göstərdiyi xatırlanmış, Fondun başqa ölkələrdə həyata keçirdiyi xeyirxah missiyalardan geniş söhbət açılmışdı.

Qəzetlərdə Notr-Dam kilsəsinin təmiri ilə əlaqədar Heydər Əliyev Fondunun təşəbbüsü ilə göstərilən maliyyə yardımının təqdimat mərasimindən bəhs edən şəkillər də verilmişdi. Ölkənin ”Frans-3” televiziya kanalının tədbirdən hazırladığı verilişdə Heydər Əliyev Fondunun Azərbaycandan çox-çox uzaqlarda, Fransada iki abidənin və bir kilsənin təmirinə yardım etməsinin Fondun prezidenti Mehriban xanım Əliyevanın tarixi abidələrə qayğısından irəli gəldiyi vurğulanmışdı. Bildirilmişdi ki, xeyirxah əməllər sahibi olan Mehriban xanım Əliyevanın təşəbbüsü hamıya bir nümunədir.

### Riyakarlıq faktı sübuta yetirildi!

Daha bir ilginc məsələ budur ki, YUNESCO hələ 2005-ci ildə, Koitiro Maatsurenin baş direktor olduğu dövrlərdə Azərbaycanın işğal altındakı ərazilərinə missiya göndərməsi çağırışlarına belə bir bəhanə ilə cavab vermişdi - Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması missiyanın həmin ərazilərə getməsinə ”əngəl” yaradırmış.

Düzdür, bunu haradasa anlamaq mümkündür ki, YUNESCO o dövrlərdə ən azından torpaqlarımızın işğala məruz qaldığını rəsmi şəkildə bəyan edirdi. Lakin sonrakı müddətdə təşkilatın aşkar davranışları nəyin-necə olduğunu göstərdi...

Xüsusilə, Odri Azulenin baş direktor olması və öz vəzifəsini bir kənara qoymaqla ölkəsinin ermənipərəst fəaliyyəti baxışından çıxış etməsi nəticə etibarı ilə riyakarlıq faktını açıq şəkildə isbatlayıb. Belə olan halda isə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ədalətli, qətiyyətli və mühüm addım atması artıq YUNESCO üçün bir dərs olacaq.

*Rövşən RƏSULOV*





# Azərbaycanın dünyəvilik modeli: multikulturalizm və tolerantlıq

**Ulu Öndərin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multikultural və tolerant dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqlar və vahid dövlət prinsipi ilə mənəvi-siyasi birliyini əlaqələndirir.**

Ölkəmizdəki tolerantlıq mühiti Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş bərabərhüquqlu və öz inancına görə azaddır. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında davamlı inkişaf edən ölkəmiz artıq dünyada multikulturalizm, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bir daha göstərir ki, multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir.Bu gün Azərbaycan dünyada multikulturalizmin ən mükəmməl modelini yaradıb. Artıq bu model ən inkişaf etmiş ölkələrin ali məktəblərində tədris olunur, elmi mərkəzlərdə öyrənilir, təhlil edilir. Multikulturalizm Azərbaycanda həyat tərzi və dövlət siyasətidir. Multikulturalizmin və tolerantlığın nə dünyada, nə də ölkəmizdə alternativi yoxdur. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayır və azad fəaliyyət göstərirlər. Belə bir mühitin formalaşdığı Azərbaycanda hər il 16 noyabr Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Bu beynəlxalq gün YUNESKO-nun "Dözümlülük prinsipləri bəyannaməsi"ndə təntənəli şəkildə elan edilmişdir. Bəyannamə 1995-ci ildə YUNESKO-nun 28-ci Baş Konfransında təsdiq edilmişdir. Bəyannamədə dözümlülük (tolerantlıq) dedikdə, "dünya mədəniyyətlərinin zəngin müxtəlifliyi, bizim özünüifadə formaları və insan fərdiliyini ifadə etmək üsullarına hörmət, qəbul və doğru anlaşma" nəzərdə tutulur. Bəyannamədə "insanların öz təbiətinə görə xarici görünüşü, mövqeyi, danışığı, davranışı və dəyərləri baxımından fərqli olduqlarını, barışıq içində yaşamaq və fərdiliyini qorumaq hüquqlarına sahib olduqlarını" elan edir. Bəyannamədə insanlara qarşı dözümsüzlüyün yaratdığı təhdidlər araşdırılır, dözümsüzlüyə qarşı mübarizə metodları və proqramları təqdim olunur. 1997-ci ildə BMT Baş Assambleyası (A/RES/51/95 saylı qətnamə) da BMT-nin üzvü olan dövlətlərə bu Beynəlxalq Günü qeyd etməyi təklif etmişdir.



### "ÖLKƏMİZDƏ SABİTLİYİN MƏNBƏYİ XALQIMIZIN İRADƏSİDİR, XALQIMIZIN SEÇİMİDİR"

Bu gün dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Azərbaycan inamlı inkişafını davam etdirir, ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər Məscidi inşa edilib. Qeyd edək ki, xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Belə ki, Milli Məclis "Dini etiqad azadlığı haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunlar qəbul edib.

### "AĞDAM O DƏRƏCƏDƏ DAĞIDILIB Kİ, XARİCİ EKSPERTLƏR ONU "QAFQAZIN XİROSİMASI" ADLANDIRIRLAR"

Azərbaycan multikulturalizm ideyasını irəli sürdüyü vaxtda, Ermənistan tərəfindən işğal dövründə saysız-hesabsız abidələrimiz dağıdılmışdır. Qarğabazar kəndində Cəlil türbəsi, Aşağı Veysəlli kəndində Mirəli türbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə türbəsi, Fuzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim türbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələr işğal dövründə erməni vandallığına məruz qalmışdı. Ermənistanın işğalı nəticəsində saysız mədəni abidələr dağıdılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxışı zamanı bildirdiyi kimi, otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır: "Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib.

Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir". Bütün bunlar Ermənistan tərəfindən Azərbaycana qarşı olan ərazi iddiasının nəticəsində baş vermişdir. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Amma Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Azərbaycanda müxtəlif yönümlü dini icmaların fəaliyyət göstərməsi ölkədə dini azadlığın mövcudluğunu bir daha sübut edir. Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası pravoslav dini təşkilatı, Bakı "Dağ Yəhudiləri" dini icması, Bakı Krişna Şüuru dini icması və onlarla belə icmalar ölkəmizdə tolerant mühitin təzahürüdür. Müasir dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır.

***Zümrüd BAYRAMOVA***

## "Azərbaycan Albaniya əlaqələri özünün inkişaf dövrünü yaşayır"

"Azərbaycan Albaniya əlaqələri özünün inkişaf dövrünü yaşayır". Bunu SİA-ya açıqlamasında deputat Azər Badamov deyib. Onun sözlərinə görə, Albaniyanın dövlət başçıları Azərbaycanda dəfələrlə səfərdə olublar:



"Azərbaycan Prezidenti cənab İlham Əliyev isə ilk dəfə bu gün Albaniyada səfərdədir. Ölkə başçımızın səfəri ölkələrimizarası münasibətlərin inkişafına yeni impuls verəcək. Albaniya ATƏT-in hazırdakı sədri və BMT TŞ-nın qeyri-daimi üzvü kimi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və təmsil olunduğu beynəlxalq təşkilatlarda hər zaman yanımızda olub. İqtisadi əməkdaşlığımız 5 milyon dollar ticarət dövriyyəsi ətrafındadır. Amma ölkələrimizarası iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün potensial böyükdür".

Deputat sözlərinə belə davam edib: "Albaniya TAP-ın iştirakçısıdır və bu ölkənin coğrafiyası CQD-nin şaxələndirilməsinə imkan verir. Bu gün Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində vacib faktora çevrilib. Albaniya Avropa birliyin daxil olmasa da münasibətlərimizin yüksək olması Avropa ittifaqı ilə bu ölkə üzərindən əməkdaşlıq imkanlarımızı genişlənir. Azərbaycanıla Albaniya sərmayələrin qarşılıqlı yatırılmasına başlayıb.

Ölkə başçımızın səfəri çərçivəsində bir çox spektrlərdə əməkdaşlığımızın genişləndirilməsinə töhfə verəcək yeni sənədlərin imzalancağı da gözləniləndir. Dünyada dostlarımızın sayı artdıqca ölkəmizin siyasi-iqtisadi gücü artır, mövqelərimiz güclənir".

***Ayşən Vəli***




# Kimlər Türkiyədə terror törədir?

“İstanbulda baş vermiş terror aktının əsas səbəbi Türkiyənin regionda və dünyada əsas təhlükəsizlik buferi kimi önə çıxması, bütün qlobal-iqtisadi, geosiyasi proseslərin əsas təşəbbüskarı və öncülü olmasından qaynaqlanır. Ayrı-ayrı dövlətlərin və qüvvələrin Türkiyənin hər gün daha da artan gücündən narahat olduğu göz önündədir. Belə ki, son vaxtlar rəsmi Ankara bir çox önəmli beynəlxalq proseslərdə həlledici mövqe sahibi statusunda qəbul olunur. Türkiyənin beynəlxalq mövqelərinin artması və qlobal siyasi iradə mərkəzinə çevrilməsi rəsmi Ankaraya qarşı müqavimət cəhdlərini də gücləndirib”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.

Politoloq qeyd edib ki, Türkiyənin Rusiya və Ukrayna ilə anlaşaraq ”taxıl dəhlizi” sazişi ilə dünyanı qlobal ərzaq böhranından xilas etməsi, həm Rusiya, həm də Ukrayna ilə birbaşa siyasi-diplomatik təmas mexanizmlərini qoruyub saxlaya bilən yeganə dövlət olması və nəticə etibarilə gələcək sülh prosesində vasitəçilik missiyasının da həm Rusiyanın, həm də Ukraynanın güvəndiyi yeganə ölkə kimi məhz Türkiyənin üzərinə düşməsi bu ölkənin dünyanın təhlükəsizlik sistemində necə rol oynadığını bariz şəkildə ortaya qoyur.

Digər tərəfdən ayrı-ayrı dövlətlər Ankaranın həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada önəmli aktor, siyasi oyunçuya çevrilməsini də həzm edə bilmirlər. Xüsusilə, Türkiyənin Türk Dövlətləri Təşkilatının yaradılmasında və fəaliyyətinin gücləndirilməsində əsas siyasi cazibə mərkəzi rolunu oynaması bu gücləri olduqca narahat edir. Əgər, enerji resursları ilə zəngin olan Türkdilli dövlətləri özündə birləşdirən bu təşkilatın fəaliyyətində qarşıya qoyulmuş hədəflərə çatılarsa, onda dünya nəhəngləri yeni qlobal siyasi-iqtisadi güc mərkəzi ilə hesablaşmalı olacaqlar. Bütün bu məqamlar isə obrazlı ifadə etsək beynəlxalq güclərin yuxusuna haram qatır.

Hər birimiz zaman-zaman Türkiyədə terror aktlarını şahidi olmuşuq. Lakin təxminən 6 ildir ki, İstanbulda dünən baş vermis terror kimi təsirli bir hadisə, terror hadisəsi yaşanmamışdı. Türkiyədə sonuncu dəfə dəhşətli terror 2016-cı ilin 31 dekabrından 2017-ci ilin yanvar ayının 1-nə keçən gecə ”Reina” əyləncə mərkəzində törədilmişdi. 39 nəfərin həyatını itirdiyi teraktdan sonra hücumlar səngimişdi. Xüsusilə İstanbul kimi böyük şəhərlərdə teraktlara rast gəlinmirdi. Rəsmi məlumatlara görə təkcə bu il ərzində Türkiyədə 200-ə yaxın terror hadisəsinin qarşısı alınıb. Təbii ki, son terror aktı Türkiyədə prezident seçkiləri öncəsi etimadsızlıq yaratmağa, vətəndaş narahatlığına nail olmağa, onların siyasi iradələrinə təsir etməyə hesablanıb. Lakin bu mənfur saldırının arxasında dayanan güclər bir şeyi unudurlar ki, son 40 ili terrorla mübarizədə keçirən bir milləti, bir dövləti bu cür hücumlarla öz yolundan çəkindirmək mümkün deyil. Əksinə hər belə bir saldırı türk insanına bir-birinə daha çox bağlayır və dövlətin müvafiq qurumlarını da terror qarşı daha güclü mübarizə aparmağa sövq edir. Odur ki, Türkiyəni qarşısına qoyduğu hədəflərdən yayındırmaq heç bir halda mümkün olmayacaq.

Onu da qeyd edim ki, son terror aktından sonra rəsmi Ankaranın PKK/PYD-YPG-yə qarşı da müəyyən addımlar atacağı qətiyyən şübhə doğurmur. Böyük ehtimalla yaxın vaxtlarda Türkiyə ordusu Suriyada genişmiqyaslı antiterror əməliyyatlarına başlaya bilər. Yəni, rəsmi Ankaranın terror aksiyası ilə verilən mesajları antiterror əməliyyatları ilə cavablandıra biləcəyi də qətiyyən istisna deyil.

***Banuçiçək Hüseynli***

ŞƏRH+AKTUAL

# Beynəlxalq aləmdən Tehran rejiminə qarşı çağırış!

## Ariel Koen: "Bütün dünya İranın qəddarlığına qarşı birgə mübarizə aparmalıdır"

**Ölkələr İranın həm ölkə daxilindəki, həm də ölkəsindən xaricdəki qəddarlığını yalnız birgə gücləri ilə dayandıra bilərlər. SİA xəbər verir ki, bu barədə Atlantic Council təşkilatının baş elmi mütəxəssisi, enerji, inkişaf və təhlükəsizlik üzrə direktoru Ariel Koen bəyan edib.**






Onun sözlərinə görə, İran rejimi beynəlxalq hüququ pozur və yalnız öz xalqına qarşı deyil, həm də Rusiyaya silah verməklə Ukrayna xalqına qarşı aparılan müharibədə iştirakçıya çevrilir. Koen bildirib ki, beynəlxalq ictimaiyyət BMT-nin egidası altında məhkəmə keçirməlidir və İranda insan hüquqlarını pozanlara qarşı hökm verməlidir. O, hətta İranın ali dini rəhbərini bu sıralamada birinci qeyd edib. ”Əlbəttə ki bu, onların cinayətlərinə qarşı şifahi hökmlər olacaq”, deyə o bildirib.

**“Nəinki öldürülənlərin və həbs edilənlərin ailələrinə vəsaitlər toplanmalıdır, eləcə də hərəkatın özünə dəstəklər göstərilməlidir”**

Ariel Koenin sözlərinə görə, İran xalqına böyük beynəlxalq dəstək göstərmək lazımdır: ”Nümayişlər, mitinqlər keçirilməli, nəinki öldürülənlərin və həbs edilənlərin ailələrinə vəsaitlər toplanmalıdır, eləcə də hərəkatın özünə dəstəklər göstərilməlidir”.

”İnsanlar və beynəlxalq ictimaiyyət bilməlidirlər ki, biz İran xalqını dəstəkləyirik və bu dəstək daha böyük olmalıdır. Mən istəyirəm ki, İran diasporu azərbaycanlılar da daxil İran hökumətinə qarşı təzyiqlərdə, KİV-lərdə, İrandakı azadlıq mücadiləsi aparan qardaş və bacılara dəstək olmaq üçün vəsaitlərin toplanmasında fəallıq göstərsinlər”, deyə ekspert bildirib və onu da təəssüflə qeyd edib ki, dünya ayrı məsələlərlə başını qatıb: ABŞ-da seçkilər, Ukraynada müharibə və s. Lakin İrandakı olaylar diqqət mərkəzindən kənarda qalıb.

**Koen İranın Rusiyanı silahlarla təchiz etməsi məsələsinə də toxunaraq bildirib ki...**

Onun sözlərinə görə, İran çox zəngin ölkə ola bilərdi, xüsusilə təbii qaz ehtiyatlarını inkişaf etdirsəydi. Lakin rejim buna imkan vermədi və əgər o dəyişilsə yeni hakimiyyət şəxsi ideologiyasının möhkəmlənməsinə deyil, İran xalqının səmərəsinə çalışacaq. ”Hazırkı rejim indiyə qədər qiyam və çevrilişlərlə toqquşub, ancaq onlar yatırılıb”, deyə xatırladan Koen düünür ki, nə zamansa buna dövlət məmurları, o cümlədən hərbçilərlə qatılacaqlarmı? ”Bəsdirin, biz daha öz insanlarımızı, körpələrimizi öldürmək istəmirik, biz ona görə buradayıq ki, rejimin əzablarına, yoxsulluğa son qoyulsun”.

Koen İranın Rusiyanı silahlarla təchiz etməsi məsələsinə də toxunaraq bildirib ki, Tehranın Moskvaya silah satması həqiqətən də beynəlxalq hüququn pozulması və hərbi cinayətdir, belə ki, bu silahlar dinc sakinləri qətlə yetirir. Onun sözlərinə görə, ABŞ və Qərbi Avropa nəinki şirkətlərə, həm də ayrı-ayrı şəxslərə qarşı sanksiyalar tətbiq etməlidirlər - baş direktorlara, istehsalçılara və başqalarına.

”Belə hissələr (PUA və s. hərbi məqsədli texnologiyalar-R.R.) satılmamalıdır və İrana həmin hissələri satan ölkələr də sanksiyalara məruz qoyulmalıdırlar. Biz həm ölkə daxilində, həm də ölkədən xaricdə birlikdə İranın qəddarlığının qarşısını ala bilərik. Rejim özünü xalqına qarşı çox amansız aparır və belə məsuliyyətsizlik Ukrayna xalqına qarşı da yönəlib”, deyə Atlantic Council təşkilatının baş elmi mütəxəssisi, enerji, inkişaf və təhlükəsizlik üzrə direktoru Ariel Koen bəyan edib.

***Rövşən RƏSULOV***

# Yaşasın güclü TÜRKİYƏ!

## İlham Əliyev: "Birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir"



**99 il öncə böyük Mustafa Kamal Atatürkün rəhbərliyi ilə başlanmış cümhuriyyət quruculuğu yolu qardaş Türkiyəni dünyanın ən qüdrətli dövlətlərindən birinə çevirib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib.**

Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Azərbaycan Prezidenti İlham Əliyevin qardaş Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrikində Türkiyənin gündən-günə güclənən, sürətlə inkişaf edən, beynəlxalq aləmdə söz sahibi olan ən qüdrətli ölkələrdən birinə çevrildiyini bildirib: "Bu gün siyasi, iqtisadi, hərbi, texnoloji və digər sahələrdə əldə etdiyi mühüm nailiyyətləri ilə qardaş Türkiyə ən qabaqcıl ölkələr sırasındadır. Eyni zamanda, son dərəcə mürəkkəb proseslərin cərəyan etdiyi dünyada və regionda sülhün və sabitliyin bərqərar olması, haqqın və ədalətin müdafiəsi naminə ardıcıl və qətiyyətli mövqeyi ilə ölkəniz beynəlxalq müstəvidə yüksək nüfuz və hörmət qazanmışdır. Bütün bunların təməlində Sizin zəhmətiniz və yorulmaz əməyiniz, müdrik rəhbərliyiniz altında aparılan dövlət siyasətinə xalqınızın böyük etimadı və dəstəyi dayanır. Qüdrətli Türkiyə Respublikasının hər bir uğurunu öz uğurumuz hesab edir, bundan hədsiz qürur duyuruq".

### "DOSTLUQ VƏ QARDAŞLIQ ÜZƏRİNDƏ QURULMUŞ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN BU GÜN DÜNYADA BƏNZƏRİ YOXDUR"

Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Əlbəttə ki, Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir və uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Əlbəttə ki, Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir." - deyə Prezident bildirib. Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu: "Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir". Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Cənab Prezidentin çıxışlarının birində bildirdiyi kimi, Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir: "Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".

### "QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİNİN BƏRPASI İŞİNDƏ VƏ YENİDƏN QURULMASINDA AZƏRBAYCANA ƏN ÇOX DƏSTƏK VERƏN YENƏ DƏ QARDAŞ TÜRKİYƏDİR"

Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası müttəfiqlik münasibətləri həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. "Tarixin ən önəmli anlarında Azərbaycana dayaq olmuş qardaş Türkiyənin İkinci Qarabağ müharibəsi zamanı da yanımızda olmasını, Siz başda olmaqla bütün xalqınızın müharibənin ilk saatlarından son dəqiqələrinə qədər bizi dəstəkləməsini daim yüksək qiymətləndirir və heç zaman unutmuruq. Bu gün də Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası işində və yenidən qurulmasında Azərbaycana ən çox dəstək verən yenə də qardaş Türkiyədir. Bir neçə gün bundan əvvəl Sizin Azərbaycana səfəriniz çərçivəsində Zəngilan Beynəlxalq Hava Limanının, "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin açılışında iştirakımız, bir sıra mühüm infrastruktur layihələrinin təməlini birgə qoymağımız qardaşlıq münasibətlərimizin sarsılmaz ənənələrinin bariz ifadəsidir."

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə yüksəldilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Azərbaycanla Özbəkistanı tarixi köklər, mədəni dəyərlər və din birləşdirir"



"Azərbaycanla Özbəkistanı tarixi köklər, mədəni dəyərlər və din birləşdirir. Hətta Sovet dövründə də Azərbaycan və Özbəkistan ən yaxın iki respublika sayılırdı. Bu gün müstəqillik dövründə də Azərbaycan və Özbəkistan üçün münasibətlərin təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub". Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar İskəndərov deyib.

Onun sözlərinə görə, belə ki, Daşkənddə və Özbəkistana səfər edən milli liderimiz iki ölkə arasındakı münasibətlərin strateji dostluq, tərəfdaşlığa söykənməsi barəsində fikirlər söyləyir və iki ölkə arasındakı münasibətlərin gələcəkdə yüksələn xəttlə davam etdiriləcəyini qeyd edir: "Cənab Prezident İlham Əliyevin Özbəkistana bu il 3-cü dəfə səfər edib. Özbəkistan prezidenti Şavkat Mirziyoyevlə görüşündə bunu söylədi ki, "Bizim münasibətlərimiz yüksək xəttlə inkişaf edir. Bu, artıq strateji tərəfdaşlıq və dostluq əlaqələridir. Mənim sizin ölkənizə 3-cü səfərimdir və onu deməyə də əsas verir ki, iki ölkə arasında olan münasibətlər çox sürətlə inkişaf edir".

***Ayşən Vəli***

## "Sülh müqaviləsi Azərbaycanın irəli sürdüyü şərtlər əsasında imzalanmalıdır"



"2020-ci il noyabr ayının 8-də Şuşanın işğaldan azad olunması ilə 44 günlük Vətən müharibəsini tarixi qələbə ilə başa vurduq. Ermənistan kapitulyasiya sənədini imzalamaq məcburiyyətində qaldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə çıxışı zamanı Şuşanın işğaldan azad olunmasının əhəmiyyətini onun strateji yerləşməsi ilə yanaşı, həm də Azərbaycan xalqı üçün müqəddəs olması ilə əlaqələndirdi. Həqiqətən də, vaxtilə Ulu Öndər Heydər Əliyev də demişdir ki, "Şuşasız Qarabağ olmaz"". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu bildirib.

Onun sözlərinə görə, Şuşa hər bir azərbaycanlı üçün müqəddəsdir: "Qələbəmizin piki məhz Şuşanın işğaldan azad edilməsi oldu. Məhz Şuşanın işğaldan azad edilməsi elə müharibənin taleyini həll etdi. Ölkə Prezidenti diqqəti həm də ona çəkdi ki, Şuşanı işğaldan azad etməklə, Azərbaycan Ordusu əsl qəhrəmanlıq salnaməsi yazmış oldu. Keçilməz sədləri aşaraq, sıldırım qayalara dırmaşaraq müqəddəs Şuşanı düşməndən azad etməklə Azərbaycan əsgəri hansı hünərə və ürəyə malik olduğunu bütün dünyaya göstərdi.

Ölkə Prezidenti Vətən müharibəsinin başlamasına və gedişinə toxunaraq, Şuşaya gedən yolun 27 sentyabrdan başladığını vurğuladı. Son dövrdə Ermənistanın özünü tam cəzasızlıq şəraitində hiss etdiyi və təxribatlarını genişləndirdiyi aşkar müşahidə olunurdu. Növbəti təxribatların qarşısının alınması zamanı Azərbaycan dövləti öz torpaqlarını işğaldan azad etmək üçün əks-hücum əməliyyatlarına da başladı. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində Azərbaycan Ordusu ancaq irəli getdi və bir addım da olsun geri addım atmadı. Çox böyük sürətlə torpaqlarımızı erməni işğalçılarından təmizlədi. İşğalçı Ermənistan ordusunun 10 mindən artıq fərrarisi oldu. Azərbaycan Ordusunda ümumiyyətlə belə hal olmadı. Real döyüş şəraitində Azərbaycan Ordusu Ermənistanın işğalı altında olan torpaqlarımızın əhəmiyyətli hissəsini azad etdi. Şuşanın işğaldan azad edilməsi isə düşməni təslim olmağa məcbur etdi. Ermənistan kapitulyasiya sənədini imzalamağa məcbur oldu. Bundan sonra Ağdam, Kəlbəcər və Laçın da bir güllə atılmadan erməni işğalından azad olundu.

Ölkə Prezidentinin səsləndirdiyi fikirlərdən görünür ki, dövlətimiz, xalqımız torpaqlarımızın işğaldan ediləcəyi günə əsaslı şəkildə hazırlaşmışdır. Aşkar görünürdü ki, Ermənistan sadəcə manipulyasiya ilə məşğuldur, öz xoşu ilə Azərbaycan torpaqlarından çıxmaq fikrində deyil. Münaqişənin tənzimlənməsi prosesində iştirak edən ATƏT-in Minsk Qrupunun fəaliyyəti isə Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin leqallaşdırılmasına yönəlmişdir. Azərbaycan Prezidenti hər zaman deyirdi ki, biz nəticəsiz danışıqları sonsuzluğa qədər davam etdirməyəcəyik. Ona görə də güclü ordu quruculuğunu həyata keçirmək üçün güclü iqtisadiyyat yaratmaq tələb olunurdu. Həyata keçirilmiş düzgün siyasət sayəsində dayanıqlı iqtisadi inkişaf təmin edildi. Bu da öz növbəsində Ordunun gücləndirilməsinə, ən müasir tələbələrə cavab verən təchizatın həyata keçirilməsinə imkan verdi. Vətən müharibəsinin gedişində Azərbaycanın hərtərəfli potensialı daha aydın göründü. Postmüharibə dövrünün reallıqlarını isə uğurlu xarici siyasi strategiya seçməklə, müxtəlif beynəlxalq platformalarda, tribunalardan haqlı maraqlarımızı inamla müdafiə etməklə dünyaya qəbul etdirməyi bacardıq. Yekun sülh müqaviləsinin də qalib, güclü Azərbaycanın irəli sürdüyü şərtlər əsasında imzalanacağı şübhəsizdir".

***Səbinə Hüseynli***

## Yeni Azərbaycan Partiyası - 30

# YAP Azərbaycanın tarixi köklərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən zəfərlər partiyasıdır

**Otuz illik yolu sözlə əməl birliyi, monolitliyi ilə qət edən partiyanın güc mənbəyi yaradıcısı ulu öndər Heydər Əliyevin zəngin irsi və layiqli davamçısı Prezident İlham Əliyevin yeniliyi özündə əks etdirən siyasəti, təkmil islahatlarıdır**

**YAP-ın yaranmasından bəhs edərkən ilk olaraq göz önünə "91-lər"in dahi şəxsiyyətə ünvanladığı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti gəlir**



*Vüqar Rəhimzadə, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, "91-lər"in üzvü, siyasi elmlər doktoru*

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan Yeni Azərbaycan Partiyasının yaranma zərurətindən bəhs edərkən bu fikri xüsusi qeyd edirdi ki, partiyanın yaranma prosesini sona çatdıran "91-lər"in mənə ünvanlanmış məktubudur. Mən bu 91 şəxsi çox yüksək qiymətləndirirəm, onların hamısına öz hörmət və ehtiramımı, xüsusi minnətdarlığımı və təşəkkürümü bildirirəm. "91-lər" həqiqətən çox cəsarətli adamlar olmuşlar. Ümummilli Lider, eyni zamanda, bildirirdi ki, çıxışlarımda ona görə partiyanın yaranma prosesindən bəhs edirəm ki, hamı bilsin- bu partiyaya hər kəs öz könlü, vicdanı, qəlbi ilə gəlməlidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzərində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli-mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır. Yeni Azərbaycan Partiyası milliyyətindən, dinindən, dilindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşı üçün doğma partiyadır. Partiyanın gələcəyinə böyük inam bəsləyən ulu öndər Heydər Əliyev bildirirdi ki, Yeni Azərbaycan Partiyasının çox parlaq gələcəyi var. YAP daim yaşayacaq. Yeni Azərbaycan Partiyasına yeni-yeni gənc üzvlər gələcək, bu partiyanın prinsiplərini günü-gündən yüksəklərə qaldıracaq və Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcəyinə xidmət edəcək.

Yeni Azərbaycan Partiyasının yaradıcısı, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin bu inamı, əminliyi hazırda partiyanın Zəfər ruhunda qeyd etdiyi 30 illik yubileyində özünün aydın ifadəsini tapır. Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yarandı. YAP-ın yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları son dərəcə narahat edirdi. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə ulu öndər Heydər Əliyevin ətrafında birləşdilər. Azərbaycan tarixinə "91-lər"in müraciəti" kimi daxil olan həmin sənəd əslində bütün xalqın arzu və istəklərinin ifadəsi idi. "91-lər"in müraciətində də belə bir fikir öz əksini tapır ki, bu müraciətə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalı adından biz edirik. Biz həm öz adımızdan, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz.

YAP-ın yaranmasından bəhs edərkən, ilk olaraq göz önünə xalqın böyük əksəriyyətinin istəyini özündə əks etdirən "91-lər"in dahi şəxsiyyətə ünvanladığı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti gəlir. Həmin müraciətdə bu inam ifadə edilirdi ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi-iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərinə öz layiqli töhfəsini verə bilər.

Dahi şəxsiyyət Heydər Əliyev müraciətə "Yeni müstəqil Azərbaycan uğrunda!" cavabında bildirdi ki, Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə bir partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata vəsiqə alan Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycanın siyasi həyatının bütün mərhələlərində tarixi missiyasını uğurla yerinə yetirib.

### Partiyanın dəyişməz prinsipləri

Otuz illik yolu təhlil edərkən bu reallıq təsdiqlənir ki, Yeni Azərbaycan Partiyasının ilk gündən qəbul etdiyi prinsiplər dəyişməzdir. "Yeni müstəqil Azərbaycan uğrunda!" devizi ilə fəaliyyətə başlayan partiyanın Proqramında Azərbaycanın müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaq və sair kimi hədəflər öz əksini tapmışdı. Müasir müstəqil Azərbaycanın qeyd olunan hədəflərə nail olmaq istiqamətində atdığı addımlar və əldə edilən uğurlu nəticələr 30 ilin reallıqlarında ifadə olunur.

1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın və Yeni Azərbaycan Partiyasının həyatında yeni dövrün əsası oldu. Partiyanın 7 aydan sonra iqtidar partiyasına çevrilməsi onun həyatında davamlı yeniliklərə, təkmilləşməyə, fəaliyyətində dövrün, zamanın tələblərini nəzərə almasına yol açdı. Hər bir inkişafın təmin edilməsində sabitliyin vacib faktor olduğunu önə çəkən ümummilli lider Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. Bu da öz növbəsində ölkəmizdə normal iqtisadi mühitin yaradılmasına, Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayının artmasına geniş imkanlar yaratdı. Bu baxımdan bir, müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə siyasi durumun gərginliyi Azərbaycanla iqtisadi əməkdaşlıqda maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olmuşdu. Ümummilli Liderin Azərbaycanda qısa müddətdə yaratdığı sabitlik 1994-cü il sentyabrın 20-də dünyanın nəhəng transmilli neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasında əhəmiyyətli rol oynayan amillər sırasındadır. Belə ki, ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə önəm verməsi Azərbaycanın təşəbbüsləri və iştirakçılığı əsasında enerji layihələrinin icrasına yol açdı. Ulu öndər Heydər Əliyev bildirirdi ki, neft Azərbaycanın ən böyük sərvəti olub xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Ümummilli Liderin müəllifi olduğu neft strategiyası üç istiqaməti özündə ehtiva edirdi: xarici sərmayə və təcrübənin ölkəyə cəlb edilməsi; çoxvariantlı ixrac sisteminin qurulması və təbii sərvətlərdən əldə olunan gəlirlərin şəffaf və səmərəli idarə edilməsi. Ölkəmizdə sabitliyin və normal biznes mühitinin yaradılması Azərbaycanı qısa müddətdə böyük investisiyalar məkanına çevirdi. Hazırda ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcminin 280 milyard dollara çatması həmin dövrdə qoyulan möhkəm təməlin nəticəsidir. Bugünkü reallıqlarımız Azərbaycanın qarşıya qoyduğu bütün hədəflərə yüksək səviyyədə çatdığını təsdiqləyir. "Biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır" söyləyən Prezident İlham Əliyev keçilən yolun uğurlarına, eyni zamanda, gündəmə gətirilən hər bir layihənin icrasının nəzərdə tutulduğu vaxtda başa çatdırılmasına söykənərək bildirir ki, düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir. Neft siyasətinin uğurlu nəticəsidir ki, bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əldə olunan uğurlar beynəlxalq səviyyədə də təqdir edilir. Ölkəmizin dayanıqlı inkişafının təmin edilməsində sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması əsas amillərdən biridir. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında biznes mühitinin yaxşılaşdırılmasını prioritet məsələ kimi qarşıya qoyur. Bu sahədə mövcud durum dünyada biznes mühitinin qiymətləndirilməsi üçün ən vacib reytinq göstəricisi hesab edilən "Doing Business"in hesabatlarından da aydın görünür. Belə ki, hesabatlarda Azərbaycanın ən islahatçı 10 ölkə sırasında qərarlaşması uğurlu siyasətin və təkmil islahatların nəticəsidir.

Ölkəmizin iqtisadi müstəqilliyinin təmin edilməsində siyasi müstəqilliyi əhəmiyyətli rol oynayır. Demokratik, hüquqi dövlət quruculuğu yolunu tutan Azərbaycan bu prinsiplərə sözdə deyil, əməldə sadiqliyini atdığı addımları ilə təsdiqləyir. Ulu öndər Heydər Əliyevin "Demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz" fikrinin davamı olaraq dövlət başçısı İlham Əliyev bildirir ki, demokratikləşmə sadəcə bir niyyət, şüar deyil, ölkəmizin hərtərəfli inkişafının əsasıdır. Bütün bunların real həyatda əksini tapmasına əmin olmaq üçün Azərbaycanın insan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin yaradılması, azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin formalaşdırılması, seçkilərin demokratikliyinin, şəffaflığının təmin edilməsi istiqamətində atdığı addımların xronologiyasına diqqət yetirmək kifayətdir. 1995-ci il 12 noyabr tarixində Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin əsası olan milli Konstitusiyamızın qəbulu ötən 27 ildə Əsas Qanuna 3 dəfə əlavə və dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi də Azərbaycanın demokratik dəyərlərə sadiqliyinin, daim yeniləşməyə, təkmilləşməyə can atmasının bariz nümunəsidir.

Müasir müstəqil Azərbaycanın 1993-2003-cü illərdə bugünümüz üçün qoyulan möhkəm təməli bütün sahələrin uğurlu inkişafında öz təsdiqini tapır. Ölkəmizin xarici siyasət sahəsində uğurları, ordu quruculuğu istiqamətində əldə etdiyi nəticələr öz sözünü ərazi bütövlüyümüzün bərpa olunmasında dedi. Azərbaycan yeni dostlar qazandı, ən etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Ümummilli lider Heydər Əliyevin "Azərbaycan dünyaya Günəş kimi doğacaq" arzusu qısa zamanda gerçəkləşdi. Dahi şəxsiyyət, eyni zamanda, bildirirdi ki, biz bu çətin günləri keçib gedəcəyik, hər kəs belə qüdrətli, zəngin ölkənin vətəndaşı olmasından qürur hissi keçirəcəkdir.

Ulu öndər Heydər Əliyevin bütün addımlarının əsasında Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, suverenliyimizin daimiliyinin və əbədiliyinin təmin edilməsi dayanırdı. Hər zaman bu çağırış səslənirdirdi ki, müstəqilliyi əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, daimi və əbədi olması bundan da çətindir. Ümummilli Lider xilaskarlıq missiyasını yerinə yetirərək tariximizə adını müstəqilliyimizin xilaskarı kimi qızıl hərflərlə yazdı.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, ulu öndər Heydər Əliyev "91-lər"in müraciətinə "Yeni müstəqil Azərbaycan uğrunda!" cavabında da bu məqamı xüsusi qeyd etmişdi ki, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması hərtərəfli, geniş planlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirlərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət olur.

Ümummilli Lider 1993-2003-cü illərdə Azərbaycanın bütün sahələrdə inkişafını təmin etməklə yeganə problemimiz olan, artıq iki ildir tarixə qovuşan Qarabağ münaqişəsinin həlli üçün möhkəm baza yaratdı. Azərbaycanın hər bir uğurunda payı olan, müstəqillik tariximizin bələdçisi funksiyasını layaqətlə yerinə yetirən Yeni Azərbaycan Partiyasının Proqramında əksini tapan hədəflər reallığa çevrildi. Ərazi bütövlüyümüzün bərpası isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasətinin şah əsəri kimi dəyərləndirilir.

## Azərbaycanın tarixi Zəfəri ölkəmizin və Yeni Azərbaycan Partiyasının həyatında mühüm yeniliklər yaratdı

YAP-ın 30 illik yubileyi Azərbaycanın dünyaya səs salan, xalqımızın səbirsizliklə gözlədiyi tarixi Zəfərimizin reallıqlarının təqdimatıdır. Çünki bu qürur səhifəsinin yazılması böyük səylərin, qətiyyətin nəticəsidir. Cənab İlham Əliyevin 19 illik Prezidentlik dövründə gördüyü işlərdən bəhs edərkən ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa tarixi müraciətini, həmçinin Ümummilli Liderin layiqli davamçısının Prezident seçildikdən sonra andiçmə mərasimində verdiyi vədləri yada salmamaq mümkün deyil. Müraciətdə öz mənalı həyatının düz 60 ilini xalqımızın bu günü və sabahı naminə yaşadığını önə çəkən ulu öndər Heydər Əliyev bildirmişdir: "Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Prezident İlham Əliyev 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçildikdən sonra andiçmə mərasimində bildirmişdir: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik."

Son 19 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha möhtəşəm uğurlara imza atıb. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, görülən işlər, hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması dövlət başçısı İlham Əliyevin 2008, 2013 və 2018-ci illərin prezident seçkilərində qələbəsini təmin etdi. Xalq 2003-cü ildə etdiyi seçimdə yanılmadığına əmin olmaqla yanaşı, daim özünə diqqət və qayğının şahidinə çevrildi. Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu sözdə deyil, əməldə təsdiqlədi.

Cənab İlham Əliyevin 19 illik Prezidentlik dövrünün 17 ili torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq mərhələsi kimi xarakterizə edilir. Azərbaycan bu illər ərzində möhkəm təməl üzərində daha da inkişaf edərək bütün sahələrdə gücləndi, zəngin təcrübə qazandı. Ümummilli Liderin "Sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordu olmalıdır" çağırışı 19 ildə dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu siyasətinin əsasında dayandı. Azərbaycan Ordusu Qələbəyə hazırlandı. Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi baza yaradıldı. Prezident İlham Əliyev dəfələrlə ən yüksək tribunalardan bəyan etdi ki, bir qarış torpağımızı belə düşmənə verməyəcəyik. Sülh danışıqlarının səmərə verməyəcəyi təqdirdə hərb yolu istisna edilmədi. 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi hərbi-siyasi Qələbəmizin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixinə qədər davam edərək Azərbaycanın döyüş meydanında olduğu kimi, informasiya cəbhəsində də üstünlüyünün təqdimatı oldu. 30 illik işğala son qoyuldu, ərazi bütövlüyümüz təmin edildi. Dövlətimizin qətiyyəti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun yazdığı Zəfər tarixi kimin kim olduğunu ortaya qoydu. 30 il işğalçıya dəstək verməklə münaqişənin uzanmasına, Ermənistanın yeni ərazilər uğrunda müharibə planlarına yol açan bəzi dünya gücləri sonda ədalətin zəfər çalmasının şahidinə çevrildilər. Bu günlərdə tarixi Zəfərimizin ikinci ildönümünü qeyd etdik. 8 Noyabr-Zəfər Günü münasibətilə Qarabağın tacı Şuşada təşkil olunan tədbirdə hərbçilər qarşısında çıxış edən dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı yumruq kimi birləşərək tarixi missiyasını yerinə yetirdi: "İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi, ölkəmizi gücləndirdi. Biz bu ağır yükü çiynimizdən atdıq, bu damğanı boynumuzdan atdıq. Biz indi başımızı dik tutub istənilən tədbirdə, istənilən formatda sözümüzü deyirik. Biz üzümüz ağ, alnımız açıq, müzəffər xalq kimi yaşayırıq. Buna görə sizə və sizin kimi on minlərlə hərbçiyə borcluyuq. Azərbaycan xalqı bunu bilir və yaxşı qiymətləndirir."

Artıq iki ildir tarixi Zəfərimizin reallıqlarını yaşayırıq. İşğaldan azad edilmiş ərazilərimizdə Böyük Qayıdış proqramı uğurla icra edilir. Bərpa-quruculuq işləri geniş vüsət alıb. Müharibədən dərhal sonra bu torpaqlarda quruculuq işlərinə start verməklə Azərbaycan dünya hərb tarixində bu sahədə də ilkə imza atdı. Qarabağdan və Şərqi Zəngəzurdan dünyaya hava qapıları açıldı. Azərbaycan tarixi Zəfərini dünyaya çatdırmaq istiqamətində biri-birindən əhəmiyyətli addımlar atdı. Dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri hər bir azərbaycanlıda qürur hissi yaradır. Bu səfərlər həmin torpaqların əvvəlki görkəminin bərpası istiqamətində atılan mühüm addımlardır. Dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq bu ərazilərimiz müasir tələblər səviyyəsində bərpa edilir. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələri Azərbaycanın dünyaya səs salan yenilikləri sırasındadır. Tezliklə bu torpaqlarımızda bərpa işləri başa çatacaq, soydaşlarımızın Böyük Qayıdışı tam şəkildə reallığa çevriləcək.

Ötən il tarixi Zəfərimizin reallıqları əsasında Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirildi. "Bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur. Yeni bir vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik" söyləyən dövlət başçısı İlham Əliyev bildirdi ki, bölgədə uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb: "Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzün bərpasını təmin etdik."

Yeni Azərbaycan Partiyasının qurultaylarında qəbul edilən tarixi qərarlar ölkəmizin həyatında, gələcək inkişafında əhəmiyyətli rol oynayıb, yeni-yeni prioritetlərin müəyyənləşdirilməsinə stimul verib. 2021-ci ilin 5 mart tarixində keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayı əlamətdar tarixi hadisə, Zəfərimizin yaratdığı reallıqlara uyğun olaraq atılan addım kimi dəyərləndirildi. Qurultayda ölkə həyatının bütün istiqamətlərində, o cümlədən YAP-ın qarşısında dayanan vəzifələr diqqətə çatdırıldı. Möhtərəm Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin vurğuladığı kimi, YAP nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın." Cənab İlham Əliyevin bu tövsiyələrini özünün gündəlik fəaliyyətində rəhbər tutan YAP 30 illik yubileyini yeniləşmiş formatda qeyd edir. VII qurultay yenilikləri ilə tarixə yazıldı. Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. YAP-ın yeni Nizamnaməsi təsdiq olundu. İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi. Bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı.

Ulu öndər Heydər Əliyevin dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsini zəruri edən səbəblərdən biri artıq ilk Proqramında əksini tapan bütün hədəflərin reallığa çevrilməsi və buna söykənərək yeni Proqramın təsdiqinə ehtiyacın olması idi. Dövlət başçısı İlham Əliyev qurultayda bu məqama diqqəti yönəldərək bildirdi ki, partiyamızın yeni Proqramı hazırlanmalıdır: "Bu Proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. İdarə Heyətinə tapşırıq verirəm ki, 3 ay ərzində partiyamızın yeni Proqramı hazırlansın və təqdim edilsin." Ötən il YAP İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə yeni Proqram təsdiqləndi. 5 fəsildən ibarət yeni Proqramda əsas hədəflərdən biri Böyük Qayıdış proqramının icrasıdır.

Bu gün postmüharibə dövrünü yaşayırıq. Hazırda əsas vəzifələrdən biri bizə Zəfəri yaşadan şəhidlərimizin ailələrinə, qazilərimizə diqqət və qayğı göstərmək, daim onların yanında olmaqdır. Dövlətimizin bu kateqoriyadan olanlara diqqət və qayğısı göz önündədir. Möhtərəm Prezidentimiz bildirdi ki, YAP da bu kateqoriyadan olan insanlara daim qayğı və diqqət göstərməlidir. Müəyyənləşdirilən yeni hədəflərə zamanında və yüksək səviyyədə nail olmaq üçün YAP yeni Proqramında "Biz birlikdə güclüyük!" prinsipini əks etdirdi.

Rəhbərlik etdiyim YAP Xətai rayon təşkilatı möhtərəm Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin tapşırıq və tövsiyələrini əldə rəhbər tutaraq daim tarixi Zəfərimizin qəhrəmanları olan şəhidlərimizin ailələrinə, qazilərimizə diqqət və qayğı göstərir, bu mühüm addımı fəaliyyətinin əsas tərkib hissəsi kimi müəyyənləşdirir. YAP-ın yeni Nizamnaməsi və Proqramına uyğun müəyyənləşdirilən hədəflərə öz töhfəmizi vermək üçün bütün qüvvə və bacarıqlarımızı səfərbər edirik.

## Ulu öndər Heydər Əliyevin irsinin təbliğində Heydər Əliyev Fondunun xidmətləri ölçüyəgəlməzdir

Yeni Azərbaycan Partiyasının VII qurultayında atılan mühüm addımlardan biri də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın YAP Sədrinin Birinci müavini təyin edilməsi oldu. Bu mühüm addım ölkəmizin bütün sahələrin, o cümlədən siyasi sistemin təkmilləşdirilməsində maraqlı olduğunu və bunu reallıqda təsdiqlədiyini nümayiş etdirir. Dövr, zaman dəyişir, davamlı islahatlar həyata keçirilir, idarəçilik sistemində yeniliklər tətbiq olunur. Təbii ki, bütün addımların hədəfi dövlətimizi daha da gücləndirmək, xalqın rifahını yüksəltmək, vətəndaş məmnunluğunu artırmaqdır. Artıq iki ildir müasir müstəqil Azərbaycanın təqdimatında qalib ölkə ifadəsini də qeyd edirik. Bu, Azərbaycanın gələcəyə hesablanmış siyasətinin, hər bir hədəfə uğurla nail olmasının göstəricisidir. 30 illik işğal dövründə torpaqlarımızı azad edəcəyimizi ən yüksək tribunalardan Ermənistana və ona havadarlıq edən dövlətlərə çatdırdıq. Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Dünyanın ayrı-ayrı ölkələrində tədbirlər keçirildi, tarixi həqiqətləri özündə əks etdirən vəsaitlər çap olundu və müxtəlif dillərə tərcümə edildi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başlatdığı "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində atılan addımlar öz müsbət nəticəsini verir. Göründüyü kimi, Heydər Əliyev Fondu yalnız dahi şəxsiyyətin irsinin təbliği ilə məşğul olmur, eyni zamanda, Azərbaycanın təqdimatına yönələn biri-birindən əhəmiyyətli layihələri ilə diqqətdədir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın 44 günlük İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə səsləndirdiyi "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" çağırışın günümüzün reallıqlarında öz əksini tapmasından hər birimiz qürur duyuruq. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində postmünaqişə dövrünün reallıqlarının gerçəkləşdirilməsi, ən əsası soydaşlarımızın işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışının tezləşdirilməsi istiqamətində mühüm addımlar atılır.

Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini təyin edilməsi onun dövlət başçısı İlham Əliyevlə birlikdə Azərbaycanımıza daha möhtəşəm uğurlar qazandırmasına əsaslanır. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan dövlətinin, dövlətçiliyinin inkişafına, qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərin gerçəkləşdirilməsinə davamlı töhfələrində öz aydın ifadəsini tapır. Azərbaycanın hər bir uğurunun bələdçisi olmaqla yanaşı, bu nailiyyətlərdə payı olan Yeni Aərbaycan Partiyasının yeni Proqramında əksini tapan hədəflərin reallığa çevrilməsi ilə ölkəmizin, həmçinin partiyanın qarşısında yeni imkanlar yaranacaq. YAP hər addımında dünənin, bu günün və gələcəyin partiyası olduğunu nümayiş etdirir.

Aydındır ki, cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının 30 ildə keçdiyi şərəfli yolu bir yazıda əhatə etmək qeyri-mümkündür. 30 ilin ümumiləşdirilmiş ifadəsi dövlət başçısı, YAP Sədri İlham Əliyevin böyük inamla və qətiyyətlə ifadə etdiyi bu əminlikdir: "Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq." Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinin hər birini yubiley münasibətilə təbrik edir, onlara yeni hədəfləri özündə birləşdirən "Biz birlikdə güclüyük!" çağırışının icrası istiqamətində atılan addımların fəal iştirakçısı olmağı arzulayıram.

# Yeni Azərbaycan Partiyası - 30

# 30 ildə şərəfli və məsuliyyətli yol keçən partiya!

*Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş bir sıra tədbirlər keçirilib*

## Səbail

Noyabrın 15-də Beynəlxalq Muğam Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsini dərin hörmət və ehtiramla anıblar.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin məzarı ziyarət edilib və önünə gül dəstələri düzülüb. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şə-







hidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ölkə ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb: "Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın xilasının, tərəqqi yoluna çıxmasının əsası qoyuldu. Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 30 illik şərəfli yol ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, müasir dövrdə beynəlxalq aləmdə tanınan nüfuzlu partiyalar sırasında olması dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətinin nəticəsidir".

YAP İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qeyd edib ki, YAP xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır: "Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilatlanma ilə avanqard siyasi qüvvəyə çevrilib".

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov xalqın ümummilli lider Heydər Əliyevə olan inamının tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdiyini bildirib. Onun sözlərinə görə, Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov ölkəmizin belə yüksək inkişaf tempi ilə irəliləməsində hakim Yeni Azərbaycan Partiyasının rolundan danışıb. Vurğulayıb ki, xalqın partiyası kimi tanınan Yeni Azərbaycan Partiyası artıq 30 ildir ki, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir, xalqın sevgisini və dəstəyini qazanır, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirir.

Milli Məclisin deputatı Nigar Arpadarai çıxışında qeyd edib ki, son 30 ildə partiya məfkurəsinin əsasını müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri təşkil edib. Bildirib ki, Heydər Əliyev dühasının Yeni Azərbaycan Partiyasının proqramında ifadəsini tapmış dövlətçilik strategiyası son 30 ildə bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənib.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov bildirib ki, Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı vaxdan qısa bir müddət sonra siyasi hakimiyyətə gələrək son 30 ildə iştirak etdiyi bütün seçkiləri qalibiyyətlə başa vurub. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin, etimadının dayandığını bir daha sübut edir.

Tədbirdə şəhid Murad Qurbanovun anası Mehriban Qurbanova və Vətən müharibəsi qazisi, "Qalibiyyətin 8 anı" kitabının müəllifi Haşım Mədətov partiyanın bundan sonra da mühüm nailiyyətlərə imza atacağına əminliklərini ifadə edib, onlara göstərilən diqqət və qayğıya görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya görə minnətdarlıqlarını bildiriblər. Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxsə fəxri fərman, partiyaya yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Tədbirə bədii hissə ilə yekun vurulub.

## Biləsuvar

Noyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Biləsuvar rayon təşkilatı partiyanın yaradılmasının 30 illik yubileyi münasibətilə tədbir keçirib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər. Biləsuvar Şəhidlər xiyabanı da ziyarət olunub, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə "Müstəqil Azərbaycan Respublikasının inkişafında Yeni Azərbaycan Partiyasının rolu" mövzusunda məruzə ilə çıxış edən YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı partiyanın yaranma tarixindən danışıb, 30 il ərzində olduqca şərəfli və məsuliyyətli yol qət edildiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamızın böyük nailiyyətlər qazandığını vurğulayan K.Qurbanlı YAP Biləsuvar rayon təşkilatının fəaliyyəti haqqında da ətraflı məlumat verib. Qeyd edib ki, hazırda ərazi partiya təşkilatlarının sayı 71-ə, üzvlərinin sayı isə 5632 nəfərə çatıb.

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxışında vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi: "Ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan YAP-ın zəngin və şərəfli inkişaf yolu keçib. Bu gün Prezident, Müzəffər






Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni-yeni nailiyyətlərə imza atıb, bu uğurların zirvəsində tarixi Zəfərimiz dayanır".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov ölkəmizin yüksək templə irəliləyişində Yeni Azərbaycan Partiyasının rolundan danışıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin, atılan uğurlu addımların nəticələri Azərbaycanın və partiyamızın həyatında özünü aydın şəkildə göstərir.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinin onun yaradılmasının ilk illərindən göründüyünü qeyd edib. Onun sözlərinə görə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

Tədbirdə partiya veteranı Rəfiqə Cəfərova, ərazi partiya təşkilat sədri Elşən Ağazadə və şəhid Pərvin Əliyevin anası Rəfiqə Əliyeva çıxış ediblər. Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya veteranına və fəalına fəxri fərman, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

**Ardı Səh. 11**

# Yeni Azərbaycan Partiyası - 30

# 30 ildə şərəfli və məsuliyyətli yol keçən partiya!

*Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş bir sıra tədbirlər keçirilib*

Əvvəli Səh.10

## Gəncə

Noyabrın 15-də Gəncə şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək Ulu Öndərin əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Naqif Həmzəyev, Milli Məclisin deputatı Müşfiq Cəfərov və AMEA-nın Gəncə bölməsinin akademik katibi







Fuad Əliyev iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov bildirib ki, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərdiyi 30 ildə bütün qüvvə və bacarığını xalqa xidmətə yönəldərək əhəmiyyətli uğurlara imza atıb: "Partiyanın yaradıcısı ümummilli lider Heydər Əliyevin müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda gərgin fəaliyyəti Azərbaycanın bu gününü və gələcək taleyini müəyyən edib".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Yeni Azərbaycan Partiyasının zərurətdən yaranmış avanqard qüvvə olduğunu bildirib. Deputat o dövrdə baş verən hadisələrdən, partiyanın yaranmasından və hazırda xalqın öz liderinə olan inamından bəhs edib.

AMEA-nın Gəncə bölməsinin akademik katibi Fuad Əliyev Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini söyləyib. Fuad Əliyev bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, Vətənin mənafeyi naminə səy göstərir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını qeyd edən Pərvin Kərimzadə bu uğurların zirvəsində tarixi Zəfərimizin dayandığını vurğulayıb.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Naqif Həmzəyev qeyd edib ki, Yeni Azərbaycan Partiyası ötən 30 ildə uğurla inkişaf edib, Azərbaycana möhtəşəm nailiyyətlər qazandırıb: "Müzəffər Ali Baş Komandan, partiyanın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük Vətən müharibəsində özünün qələbələr salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək tarixi Zəfərini yazdı".

Milli Məclisin deputatı Müşfiq Cəfərov Azərbaycanın uğurlu inkişafından, dövlət başçısının təkmil islahatlarının ölkəmizin qarşısında açdığı imkanlardan geniş bəhs edib. Bildirib ki, dövrün tələblərinə uyğun təkmilləşmə hər sahədə uğurlara yol açmaqla yanaşı, qarşıya mühüm vəzifələr qoyur. Yeni Azərbaycan Partiyası hər zaman islahatlar prosesinə öz töhfələrini verib, bu gün də yeni hədəflərə doğru inamla irəliləyir.

Tədbirdə şəhid Rauf Əsgərovun anası Briliyant Əsgərova, 44 günlük Vətən müharibəsi qazisi Mətin Abdinov və Gəncə Dövlət Universitetinin tələbəsi Ömər Məmmədli çıxış ediblər. Sonda Gəncənin ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərman, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

## Ağsu

Noyabrın 15-də Ağsu şəhər Mədəniyyət Sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini və rayon "Qəhrəmanlar Kompleks"ini ziyarət ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il 21 noyabr tarixinin ölkəmizin ictimai-siyasi həyatında yeni başlanğıc nöqtəsi sayıldığını, Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurət, eyni zamanda gənc dövlətimizin gələcək taleyi üçün dönüş nöqtəsi olduğunu və Partiyanın yarandığı gündən etibarən şərəfli və məsuliyyətli yol qət etdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin zəngin irsi əsasında və Prezident, partiyanın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti və beynəlxalq nüfuzu daha da artacaq.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirib ki, müstəqil Azərbaycan tarixində özünəməxsus yer tutan Yeni Azərbaycan Partiyasının uğurlarının təməlində məhz ulu öndər Heydər Əliyevin siyasi kursu dayanır. Bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük





əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

YAP İdarə Heyətinin üzvü, professor Tofiq Cahangirov çıxışında Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurətdən irəli gəlməsindən, partiyanın keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıb. Qeyd edib ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan YAP zəngin və şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi müvəffəqiyyətlər əldə edir.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasətinin sədri Tahir Rzayev xalqın partiyası kimi tanınan Yeni Azərbaycan Partiyasının artıq 30 ildir ki, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etməsindən, xalqın sevgisini və dəstəyini qazanmasından və ölkəmizdəki sabitliyin təminatındakı avanqard rolundan bəhs edib. Qeyd edib ki, Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

Tədbirdə partiya veteranı Əli Hüseynov, şəhid Vüqar Quliyevin anası Könül Quliyeva, Veteranlar Cəmiyyətinin sədri Cəmaləddin Zeynalov, Qarabağ Müharibəsi Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin sədr müavini Allahverdi Qənbərov şərəfli inkişaf yolu keçən partiyanın müstəqillik dövründə ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynadığını qeyd ediblər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, partiya sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri, İkinci Qarabağ müharibəsi iştirakçılarına isə "Vətən müharibəsi iştirakçısı" medalları təqdim olunub.

Ardı Səh. 12

# Yeni Azərbaycan Partiyası - 30

# 30 ildə şərəfli və məsuliyyətli yol keçən partiya!

*Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş bir sıra tədbirlər keçirilib*

Əvvəli Səh. 11

## Qubadlı

Noyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirib. Əvvəlcə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub və Şəhidlərin abidə kompleksinin ziyarət edilib. Sonra Qubadlı rayon məktəblərinin müəllim və şagird kollektivinin rəsm və əl işlərindən ibarət sərgi ilə tanışlıq olub.

Tədbirdə ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbirdə "Yeni Azərbaycan Partiyasının Müasir Azərbaycanın tərəqqisində rolu " mövzusunda məruzə ilə çıxış edən YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov bildirib ki, Yeni Azərbaycan Partiyasının 30 il ərzində olduqca şərəfli və məsuliyyətli yol qət edib: "YAP öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrilib. Ümummilli lider Heydər Əliyevin zəngin irsi əsasında və Prezident, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti, beynəlxalq nüfuzu daha da artmaqdadır. Bu gün Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP böyük gücə çevrilib, onun 800 minə yaxın üzvü var. Bu üzvlərin böyük əksəriyyəti gənclərdir ki, onlar da Azərbaycanın tarixi Zəfərinin qazanılmasında müstəsna rol oynadılar. İki il öncə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoydu, xalqımız adını əbədi olaraq tarixə qalib xalq kimi yazdırdı".






YAP Veteranlar Şurasının üzvü Əli Həsənov partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, gələcək hədəflərdən danışıb. Vurğulayıb ki, Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il 21 noyabr tarixi ölkəmizin ictimai-siyasi həyatında yeni başlanğıc nöqtəsi sayılır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan Yeni Azərbaycan Partiyasının 30 illik inkişaf tarixi göstərdi ki, partiyanı yaradanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar. 30 illik zəngin və şərəfli inkişaf yolu keçən YAP ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə edib.

YAP İdarə Heyətinin üzvü Elmar Qasımov bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi: "O zaman müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycanın ümidi müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasi xadim Heydər Əliyevə idi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Heydər Əliyev öz qayıdışı ilə Azərbaycana sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Artıq cəmiyyətin hər bir üzvündə dövlətimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı. Bu gün əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev uğurla həyata keçirir. Bunun nəticəsidir ki, bu gün ölkəmiz regionda güc amilinə, dünya birliyində söz sahibinə çevrilib".

Milli Məclisin deputatı İmamverdi İsmayılov çıxışında vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında deyib ki, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəliləyir. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bu gün işğaldan azad edilmiş torpaqlarda geniş abadlıq-quruculuq işləri görülür.

Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı, Vətən müharibəsi şəhidi Şükür Həmidovun atası Nəriman Həmidov və qazi, müəllim Sənan Həsənov çıxış ediblər. Sonda Vətən müharibəsi iştirakçılarına orden və medallar, partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs fəxri fərman və Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

## Suraxanı

Noyabrın 15-də Suraxanı Rayon İcra Hakimiyyətinin akt zalında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Suraxanı rayon Heydər Əliyev Mərkəzinin qarşısındakı Ulu Öndər Heydər Əliyevin abidəsini və rayon Şəhidlər xiyabanını ziyarət ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açıq elan edən YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov diqqətə çatdırıb ki, Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası ölkədə mövcud olan siyasi partiyaların lokomotividir: "Ölkəmizin siyasi palitrasında mövcud olan əksər subyektlər milli maraqlar nöqteyi nəzərindən YAP-ı özlərinə istiqamətverici, yolgöstərici kimi qəbul edirlər. YAP xalqımızın milli-mənəvi dəyərlərinin təmərküzləşməsidir. Yeni Azərbaycan Partiyası yalnız siyasi təşkilat deyil, o həm də xalqın məsuliyyətini öz üzərinə götürmüş sosial məfhumdur. YAP-ı yaradanlar vaxtı ilə bu partiyanın və ulu öndər Heydər Əliyevin amalları, ideyaları uğrunda öz canlarını qurban verməyə hazır olan fədakarlar idilər. "91-lər"-in fəaliyyətini yüksək qiymətləndirən ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyev onların cəsarətinin və qətiyyətinin sayəsində Yeni Azərbaycan Partiyasının yarandığını ifadə edib. Danılmaz həqiqətdir ki, o vaxtlar cəsarətli əqidə daşıyıcıları olmasa və Ulu Öndərin ətrafında birləşməsəydilər, bu gün qüdrətli dövlətçiliyimiz də olmazdı."

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi hadisə idi. Partiya dövrün zərurətindən və cəmiyyətin aydın, ziyalı təbəqəsinin təşəbbüsü ilə yaradılıb. Yeni Azərbaycan Partiyası tarixin məngənəsindən, taleyin sınağından üzüağ çıxaraq milli məfhuma çevrilib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisinin Təbii






Ehtiyyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında deyib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən siyasi səhnədə dövlətçilik mövqeyindən çıxış edərək xalqın mənafeyini hər şeydən üstün tutduğunu bəyan edib və qısa zaman kəsiyində ümumxalq rəğbətini qazanıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

Milli Məclisin deputatı Afət Həsənova söyləyib ki, Yeni Azərbaycan Partiyası yalnız siyasi təşkilat deyil, partiya həm də xalqın məsuliyyətini öz üzərinə götürmüş sosial məfhumdur. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz, o cümlədən Yeni Azərbaycan Partiyası davamlı olaraq inkişaf edir. Ötən il keçirilən VII qurultay isə partiyanın həyatında yeni mərhələnin əsasını qoyub.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov vurğulayıb ki, ölkədə YAP-a rəqib ola biləcək siyasi qüvvə yoxdur: "Ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır."

Tədbirdə rayon təşkilatının gənc fəalı Pərvin Əhmədova, Vətən müharibəsi şəhidi Şahmar Səfərovun anası Pakizər Səfərova, II Qarabağ müharibəsi qazisi Elnur Əkbərov, 114 nömrəli məktəbin direktoru, Əməkdar müəllim Ceyran Novruzova, Xalq artisti, "Şöhrət" ordeni laureatı Nurəddin Mehtixanlı çıxış ediblər. Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına, fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi və Şəhid ailə üzvlərinə, qazilərə xatirə hədiyyətləri təqdim edilib.



# Naxçıvan qovurması: söz vədəsinə çəkər...







ZƏNGİN MƏTBƏXİMİZ

**Azərbaycanın özünəməxsus ənənələri, mədəniyyəti, mətbəxi, iqlimi olan bölgələrindən biri də qədim Naxçıvandır. Naxçıvanın sərt iqlim şəraiti ilə əlaqədar deyərlər ki, burada soyuqlar noyabrda başlar, martda bitər. Buna görə də naxçıvanlılar bu soyuqlu-sazaqlı altı aya, qarşıdan gələn qışın qarlı-boranlı günlərinə qara yaz başlanan vaxtdan düz qar yerə düşənədək hazırlıq görərlər. Zirzəmilər, əl damları dağlarımızın-düzlərimizin, həyət-bacalarımızın çeşid-çeşid məhsulları ilə doldurular ki, qışda ruzi bol olsun, el arasında deyildiyi kimi, əlini nəyə atsan, boşa çıxmasın.**

Martda göy gurlayıb çölün per-pencərini yeməyə halallıq verəndən camaat başlayar həm istifadə etməyə, həm də qışa tədarükə. Şıppır, ələyəz, əvəlik hörülüb qurudular, hər biri bir dərdin dərmanı olan həmərsindən tutmuş zirincə, yemişanadək, dağ nanəsindən tutmuş yarpıza, kəklikotuna, çobanyastığınadək qurudulub ayrı-ayrı yığılar. Çaşır, sobu, bolu, baldırğanın turşusu tutular, turş, şirin alça, ərik qurudular, alma-heyva dərilib xüsusi anbarlara yığılar, armud, üzüm zirzəmilərin bu başından o başına çəkilən ipdən asılar, cəviz, badam, fındıq çırpılar, kisələrə doldurulub üst-üstə toplanar. Həm həyətlərin, həm də çölün-düzün bütün nemətlərinin mürəbbəsi, kompotu hazırlanar. Həftəbecər qoyular, bircə həftəyə süfrəyə gətirildimi, ardınca taxta çəlləklərdə qış turşusu tutular. Bundan sonra əriştə kəsilər, sərilər, qurudular, qovurulub, götürülər. Buğda yuyulub, kirkirədə çəkilib yarmaya çevrilər və parça torbalarda qış ruziləri yığılan yerə qoyular. Bu işlər noyabrın axırlarınadək - çox soyuq düşməmiş yekunlaşdırılar. Bundan sonra qadınlarımızın qalar bir, həm də ən böyük, çətin işi - qovurma qovurmaq. Söz vədəsinə çəkər: qovurmadan danışaq.

## Həm qış ruzisi, həm hazır yemək

Qovurma Naxçıvan mətbəxinə məxsus nəfis yemək növüdür. Naxçıvanda bineyi-qədimdən hər bir nemət kimi, ət də qışa tədarük olunur. Ətin bu cür emal edilməsindən alınan yemək "Naxçıvan qovurması" kimi dillər əzbəridir. Bu həm qış ruzisi, həm də hazır yeməkdir. Qovurmadan qısa müddət ərzində 10-15 adda dadlı-tamlı yemək hazırlamaq olur. Baxmayaraq ki, qışa hazırlığın ən son işi qovurmadır, bu işin təməli əvvəlcədən qoyulur. Ya bir-iki il əvvəl, ya da fevralın axırı, martın əvvəlləri doğulan erkək quzuların ən gümrahı "qışın qovurmalığıdır", - deyə adlandırılır və o, xüsusi bəslənilir. Yayın sonlarınadək sürüyə ötürülən bu heyvanlar elə ki kərdikülə pozuldu, kökəldilmək üçün həyətdə saxlanılır. Bu vaxt kəndlərə yolu düşənlər həyətlərdə 2-3 göz muncuğu toğlunun, quzunun payızın sazağından budaqda tab gətirə bilməyib ağacların altına tökülən yarpaqları, xəzəlin altında gizlənib qalmış yaşıl otları şirin-şirin yediklərini, quyruqlarını oynadaoynada ora-bura qaçdıqlarını görüblər. Baxır ilə, il sərt gələndə noyabrın axırları, yumşaq gələndə isə dekabrın ortaları, hələ bəzən sonları bu heyvanlar kəsilir, qışlıq ruzi hazırlanır.

## Qovurma etmək Naxçıvanda kiçik bir mərasim şəklində olur

Bu mərasimə evin ailə qurub ayrı yaşayan övladları, bir də ki ən yaxın qonşular dəvət olunurlar. Nənə-babalarımız deyərlər ki, qovurma etmək tək işi deyil, buna kömək lazımdır. Həm də bəzən bir heyvan yox, 2-si, 3-ü birdən qovurulur. Çünki bu qış ruzisi üçün övladlar da ata ocağına üz tuturlar. Həqiqətən də, belədir. Bunu dəfələrlə müşahidə etmişəm, ötən il isə Şahbuz rayonunun Nursu kəndində olarkən bir daha özlüyümdə bunu təsdiq etdim. Biz evə çatanda iki nəfər həyətdəki yaşlı tut ağacının budağından asılan qoçu soyurdu. Kimi ocağı qurur, kimi ortalığa qazan, ləyən, məcməyi, süzgəc gətirir, kimi də bu sazaqlı havada iş görənlərə bir stəkan çay vermək üçün samovara od salırdı. Bir azdan soyulmuş heyvan elə ağacdaca hissələrə bölünüb, yerə sərilmiş örtüyün üstündəki ləyənlərə yığıldı ki, ət bir qədər soyusun. Sonra kəndlərimizdə bütün evlərdə olan ət doğramaq üçün ərik ağacı kötüyü, bir də ət baltası gətirildi və ət qovurmalıq ölçüdə doğrandı. Əti qovurmalıq doğramaq da hər adamın işi deyil, kəndlərimizdə bunu bilən adamlar var ki, onlar qovurma edilən zaman köməyə çağırılırlar. Bu arada bir kənarda heyvanın quyruğu doğranıb qazana yığılıb ocağa qoyuldu ki, əriməkdə olsun. Ət də yuyulub böyük qazanda ocağa qoyuldu. Elə ki ət qaynara düşdü, qonşudan köməyə çağırılan ağbirçək Səkinə xala dedi ki, hə, burada əlli-ayaqlı olmalısan ki, kəf qarışmasın, yoxsa ətin rəngi tündləşər, təngov bulanıq olar. Elə buradan da maraqlı söhbət başlandı. Səkinə xala qovurmanın keyfiyyətli, dadlı çıxması üçün üç şərtə əməl olunmasını bildirdi: kəf təmiz yığılmalı, ət qaynadılanda və qızardılanda vaxtında götürülməli, bir də duzu qaydasında olmalıdır. Marağımızı görən Səkinə xala ayağa qalxıb qolunu çırmaladı, dedi ki, gəlin mən göstərim siz də görün. Onun ilk sözü bu oldu ki, qız-gəlin gərək yemək hazırlayanda, xüsusilə də xəmir yoğuranda, turşu qoyanda, qovurma edəndə önlük taxa, başına ləçək çala ki, hazırladığının içərisinə nə isə düşməsin. Təmiz-tarıq olmaq lazımdır ki, gördüyün işdən də gül iyi gəlsin. Bir də nənələrimiz deyərdilər ki, qış turşusunu qoyanda, əriştə kəsəndə, yarma hazırlayanda, qovurma edəndə heç vaxt ölümdən, xəstəlikdən danışmayın. Nəhs danışanda bu nemətlər də nəhs işlərə qismət olar. O, tez-tez ətə baxırdı ki, birdən vaxtı ötər. "Əti bir az diri götürmək lazımdır ki, qızardanda əzilməsin", - deyən Səkinə xala bir azdan hazırdır, - deyib, əti kəfkirlə süzgəclərə yığdı ki, suyu süzsün. Qazanın içərisində 10-15 tikə ət qaldı. Mən soruşanda ki, bəs bunu nə üçün götürmürsünüz? O dedi: - Qızım, qovurma edilən həyətdə həmin gün başqa yemək hazırlanmaz. Ətin suyunu göstərərək, bu, təngovdur, buna Naxçıvanın bəzi rayonlarında işgənə, cığatay, şor suyu da deyirlər. Görürsən, nə gözəl ətri var? Bilirsən niyə? Birincisi, ona görə ətirlidir ki, bizim ellərin heyvanlarını kökəldəndə əlimizə keçəni onun qarşısına tökmərik. Çölün-çəmənin güllü-çiçəkli otunun-alafının ətridir bu. İkincisi, 1-2 kiloqram əti qaynadanda belə gözəl ətir gəlmir. Burada 30-35 kiloqram ət bir yerdə qaynadığı üçün belə gözəl ətir verir. "Yaxşı, ət suyunu süzənədək biz naharımızı edək", - deyən Səkinə xala səsləndi ki, boşqabları gətirin. Qızlar məcməyilərdə içinə quru lavaş doğranmış 10-15 boşqab gətirdilər. Səkinə xala boşqabların hərəsinə bir tikə ət, 1-2 çömçə təngov qoydu, iy gedir, - deyib ən yaxın 2-3 qonşuya da pay yolladı. Yemək həyətdəki tut ağacının altında yerə açılmış böyük bir xalçanın üzərindəki süfrə başında əyləşənlərə paylandı. Süfrədə sulanmış lavaş, cızdıq (quyruq əridildikdə yerdə qalan hissə), şəhrə (heyvanın ayrı-ayrı yerlərindən götürülmüş yağlı hissələrdir. Bu da quyruqla bir yerdə əridilir, lakin cızdıqdan fərqli olaraq onun üstündə ət də olur), çaşır, baldırğan, bir də ki illik turşu deyilən kələm, pomidor, bibər, kökdən ibarət qarışıq turşu var idi.

Səkinə xalanın həyat yoldaşı Elman kişi əlini çörəyə uzadandan sonra hamı yeməyə başladı. Təngovun isladıb yumşaltdığı quru çörəyin sulanmış çörək və turşu ilə yeyilməsi qədər dadlı başqa heç nə ola bilməz. Düzdür, Naxçıvan mətbəxindən hansı yeməyi yesən, bu fikirdə olursan, lakin qovurmanın belə mərasim şəklində hazırlanması və təngovun kollektiv şəkildə yeyilməsi mətbəximizin bu nümunəsini daha dadlı edir.

## O qadına qadın deyərlər ki...

Yeməkdən sonra süfrəyə ətirli samovar çayı gətirildi. Kişilərin işləri bitdiyinə görə kimi nərd, kimi də şahmat oynamağa başladı, qadınları isə Səkinə xala səslədi ki, ay qızlar, ocaq başına. Ocağın üstünə böyük bir teşt qoyuldu, quyruq yağı oraya boşaldıldı, yağ dağ olanda ət əlavə edildi, yaxşıca qızardıldı. O, aradabir ətdən götürüb boşqabın içərisinə qoyur, bıçaqla bölüb içinə baxır və deyirdi ki, yaxşı qızardılmasa, qovurma tez xarab olar. Sonra emallı vedrə gətirildi, birinci ətlər yığıldı, sonra üzərinə yağı əlavə olundu. Səkinə xala dedi ki, yağ əti basmalıdır, yəni qabdakı ətin üzərindən 1-2 santimetr yuxarıda qalmalıdır. Əsl qovurma odur ki, öz yağı özünü bassın. Sonra vedrənin qapağını qoydu, ağız şirinliyi ilə yeyin, xeyir işlərə qismət olsun, - deyib, kəndirlə onun ağzını bağladı. Yenə də marağımızı görüb dedi ki, bəli, qovurma qış ruzisidir. Həm 15-20 gün qalmalıdır ki, bir özünü tutsun, həm də indidən ağzını qoydunsa bunun üstünə, bəs qışın şaxtasında nə yeyərsən? Qovurma qabının ağzı dekabr ayının sonlarında açılmalıdır. İndi yeməyə gör nələr var, amma qışda olmayacaq. Qışda hərdən biriki qaşıq götürüb sıyıq əriştəyə, yarma aşına, şep qovurmasına vurmalısan, yumurtanı onunla salmalısan ki, uşağın-böyüyün dizinə qüvvət, gözünə nur olsun. Qəflətən qonaq gələndə bir qovurma bozbaşı bişirib süfrəyə qoyaraq onu mətbəximizin zəngin nemətləri ilə tanış etməlisən. Bir də ki bu yerlərdə o qadına qadın deyirlər ki, yazın gözü açılana 1-2 bişirimlik qovurma saxlaya bilə ki, qazayağını, cacığı, çirişi, şepi onunla qovurub süfrəyə verə.

Səkinə xala maraqlı bir məsələyə də toxundu: "Bəzən qan təzyiqi olan adamlar və ya qoyun ətini sevməyənlər qovurmanı dana ətindən də edirlər. Amma ata-babadan qovurma qoyun ətindən hazırlanır. Dana ətindən edəndə onu mağazalarda satılan yağlarla və ya alınma quyruqla qovururlar. Bu qoyun qovurmasının dadını-ləzzətini vermir".

## Naxçıvan qovurmasının sorağı ilə...

İlin bu vədəsində Naxçıvan daha çox qonaqlı-qaralı olur. Çünki bu yerin sakinləri ilə yanaşı, buraya səfər edib qovurmanı dadan və dadı damaqlarında qalan insanlar da artıq Naxçıvan qovurmasının vurğunudurlar. Çünki qovurma zaman-zaman bu qonaqlar üçün açılan süfrələrə düzülən bir-birindən dadlı nemətlərdən biri olub. Onu dadanlar isə "bu nədir, necə hazırlanır" kimi sualları bir-birinin ardınca yağdırıb, bu nemətin dadına heyran qaldıqlarını həmişə bildiriblər. Bu səbəbdən də hər payız qovurmanın sorağı ilə qədim diyara üz tutur, istər şəxsi ailə təsərrüfatlarında hazırlanan, istərsə də ət və ət məhsulları emalı müəssisələrində istehsal olunan qovurmadan alır və soyuq fəslin ruzisi kimi qışa saxlayırlar.

Artıq Naxçıvan qovurmasının Bakıda, Gəncədə satışları həyata keçirilir. Və doyulmaz dadı olan bu nemət hər kəsin zövqünü oxşayır. Odur ki, harada satılmasından asılı olmayaraq Naxçıvan qovurmasını sevənlər uzaq məsafə də olsa, qət edib qovurma sorağı ilə həmin ünvana gəlir və onu dadırlar. Necə ki, gözəl ölkəmizin hər bir regionuna məxsus məhsulların sorağı ilə məsafələr qət edirik, Naxçıvan qovurması üçün də eynilə. Gedirik, alırıq, süfrələrimizi bəzəyirik.

Hər zaman süfrələrimiz açıq, bir-birindən gözəl nemətlərimizlə bol olsun.

***Mətanət MƏMMƏDOVA***

ANALİTİKA+AKTUAL

# İranın təhdid dili ilə danışması Tehrana nə vəd edir?

## İlk növbədə biz burada Azərbaycanın müttəfiqi olan Türkiyə faktorunu, o cümlədən, regiondakı ən etibarlı strateji tərəfdaşı - İsrail gerçəkliyini göstərə bilərik

Son vaxtlar İran KİV-lərində bu ölkəyə məxsus silahlı qüvvələrin Azərbaycan Ordusu üzərində say, silah və s. üstünlüyü barədə məlumatlar dərc edilməkdədir. Əlbəttə, nəzərə alsaq ki, əgər İranın əhalisi 86 milyondursa, bu zaman həmin saya müvafiq olaraq hərbçi sayı, silah və s. rəqəmlər 10 milyon əhalisi olan Azərbaycan qarşısında artıq ola bilər. Ancaq digər fakt budur ki, bənzər iddialar çox adi görünür. Yəni məsələ ondadır ki, müasir müharibələr say hesabına qalib gəlinmir. Misal üçün, nümunə olaraq axır zamanlara qədər "dünyanın ikinci ordusu" adlandırılan Rusiyanın Ukraynada uğradığı məğlubiyyətlərini göstərə bilərik.

Başqa tərəfdən isə mövcud geosiyasi situasiya İran üçün heç də münasib deyil və reallığa qalanda bu ölkəni çıxılmaz vəziyyətə salır. Yəni Azərbaycana qarşı hər hansı bir hərbi təhdid olarsa bu, Tehran üçün çox ağır nəticələrə gətirib-çıxara bilər. Bəs buna hansı sübutları, mümkün reallıqları göstərmək mümkündür? İlk növbədə biz burada Azərbaycanın müttəfiqi olan Türkiyə faktorunu, o cümlədən, regiondakı ən etibarlı strateji tərəfdaşı - İsrail gerçəkliyini göstərə bilərik.



### Türkiyə ilə İsrailin diplomatik və s. münasibətlərini bərpa etməsi regiona yeni impulslar verməyə başladı

Belə ki, hər iki ölkə uzun fasilədən sonra bir araya gəldi, arada olan soyuq münasibətlər isə aradan qaldırıldı. Türkiyə ilə İsrailin diplomatik və s. münasibətlərini bərpa etməsi regiona yeni impulslar verməyə başladı. Misal üçün, yalnız səfirliklər və diplomatiya səviyyəsində deyil, eləcə də hərbi, həmçinin xüsusi xidmət orqanları müstəvisində qarşılıqlı əməkdaşlıq daha geniş şəkildə reallaşdırılmağa başlandı. Söz yox ki, Azərbaycana qarşı hər hansı bir hərbi təhdid, təcavüz cəhd olarsa Ankara və Yerusəlim Bakını kifayət qədər fəal şəkildə dəstəkləyəcəklər. Üstəlik, ən əhəmiyyətlisi isə budur ki, İkinci Qarabağ müharibəsindən fərqli olaraq hazırkı dəstək koordinasiya olunmuş qaydada həyata keçiriləcək.

Yeri gəlmişkən, noyabrın 1-də İsraildə keçirilmiş seçkilərdə qalib gələrək hökumət başına Binyamin Netanyahunun gəlməsi situasiyanı köklü şəkildə dəyişməsinə səbəb olacaq. Belə ki, Netanyahu seçki marafonunda və daha əvvəllər də açıq şəkildə bəyan edirdi ki, onun prioritet məqsədlərindən biri İrana qarşı müqavimət göstərməkdən ibarətdir. Bildirilir ki, son zamanlar İsrailin İranın nüvə obyektlərinə zərbələr endirməsi istiqamətində intensiv fəaliyyətlər aparması haqqında məlumatlar müxtəlif informasiya mərkəzləri tərəfindən yayılmaqdadır. Və məsələ yalnız bununla da başa çatmır. İsrail kəşfiyyatı son dövrlərdə İranın nüvə başlığı hazırlaması, o cümlədən, hansı istiqamətlərdə prosesi aparması ilə bağlı bir sıra gizli məlumatları ələ keçirdiyini də gizlətmir. Düzdür, İran da özünə müttəfiqlər seçib - Rusiya və Ermənistan. Ancaq bu iki ölkədən başqa Tehranın ayrı strateji partnyorları mövcud deyil.

### İranda cərəyan edən kütləvi iğtişaşlar, üstəlik bu ölkənin Ukraynada müharibə aparan Rusiyaya silah verməsi faktları Baydenin anti-İran fəaliyyətinə ayrıca təkanlar verir

ABŞ-da isə Demokratlar partiyası Senat üzərində nəzarəti saxlamağa müvəffəq olub, Nümayəndələr palata uğrunda mübarizə isə davam edir. Ancaq Respublikaçılar partiyasının mövqeləri də güclənib. 2024-cü ildə ABŞ-da keçiriləcək prezident seçkiləri Astanasında Bayden bu reallıqla da barışmalı olacaq. Lakin nəticədə onun İrana yönəlik siyasəti çətin ki, xüsusi yumşaqlığı ilə seçilsin. Xüsusilə, İranda cərəyan edən kütləvi iğtişaşlar, üstəlik bu ölkənin Ukraynada müharibə aparan Rusiyaya silah verməsi faktları da Baydenin anti-İran fəaliyyətinə ayrıca təkanlar verir.

Daha bir reallıq - İran eyni zamanda bir neçə hərbi münaqişələrdə iştirakçıya çevrilib: Ukrayna ilə yanaşı Suriyada və Yəməndə. Ola bilər ki, bu kimi silahlı münaqişələrdə iranlı hərbçilər müharibə döyüş təcrübəsi qazanırlar. Amma digər tərəfdən bu ölkənin zərbə dronları, raketləri, başqa arsenalları xərclənib-gedir. Gələcəkdə isə İranın öz arsenalını yeniləmək, yaxud başqa ölkələrdən nə isə almaq şanslarını itirir. Azərbaycan isə ondan fərqli olaraq həm indi, həm də gələcəkdə dünyanın ən müasir silahları ilə təchiz olunacaq. Üstəlik, Türkiyə və İsrail faktorları da burada mühüm rol oynayacaq.

### Tehran Bakıya qarşı güc dili ilə danışmağa davam edərsə bu İran daxilindəki azadlıq hərəkatlarını daha da fəallaşdıracaq

İranın paralel olaraq bir neçə bölgələrdə davam edən münaqişələrdə iştirakı ordunun, xüsusilə, SEPAH-ın gücünü tükəndirir. Bu, onların sayını əhəmiyyətli dərəcədə azaldır. Məsələn, Suriyadakı bölmələri Azərbaycanla sərhədlərə doğru gətirmək Tehranın Suriya-Livan istiqamətindəki mövqelərini dərhal zəiflədəcək, İsrailin isə mövqelərini gücləndirəcək. Belə dəyişiklik isə iranlılar üçün yolverilməzdir.

Ən əsası isə, Tehran Bakıya qarşı güc dili ilə danışmağa davam edərsə bu İran daxilindəki azadlıq hərəkatlarını daha da fəallaşdıracaq və yalnız İran əhalisinin əhəmiyyətli tərkib hissəsi olan azərbaycanlılar deyil - kürdlər, Huzistan ərəbləri, habelə ölkənin cənub-şərqindəki sünni kəsimə aid bəlucilər mövcud rejimə qarşı daha barışmaz mövqelərə sahib olmağa başlayacaqlar. Belə olan halda isə baş qaldırmış hərəkatlara İsrailin, Səudiyyə Ərəbistanının, BƏƏ-nin, ABŞ-ın dəstəyi daha da artacaq. Mollakrat rejimi məcbur olacaq ki, Azərbaycanla sərhədindəki gücləri milli azadlıq hərəkatlarının yatırılmasına qarşı yönəltsin.

Və bütün bunlar Tehranın geosiyasi cəhətdən qarşılaşa biləcəyi olayların az bir hissəsidir. Bu siyahını artırmaq da olar. Azərbaycana qarşı təhdid dili ilə danışmağa cəhd göstərmək bu teokratik rejim üçün çox ağır nəticələrə səbəb ola bilər. Hətta o dərəcədə ki, nəticədə müstəqil Cənubi Azərbaycan dövlətinin yaranması artıq danılmaz zərurətə çevriləcək...

*Rövşən RƏSULOV*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Xoş gəlmisən Venis, bəs sən haradan çıxdın Arpi..?

Bir neçə gün idi ki, dünya mətbuatı planetin 8 milyardıncı sakininin doğulacağı barədə informasiyalar verirdilər. Əslində, bu informasiya yer üzünün əsl sahiblərinin - bəşər övladının həyata, yaşama bağlılığını əks etdirən, həm də gələcəyə ümidlə baxmağa sövq edən xoş bir məlumatdır. Axı niyə də sevinməyək ki? Yəni insan övladı bundan sonra hələ uzun əsrlər boyu yaşayacaq, müxtəlif ağır və məşəqqətli proseslərə sinə gələn planetimiz də var olacaq, öz oxu ətrafında fırlanmağa davam edəcək. Zarafat deyil əslində, dünyamız 8 milyard insanla nəfəs alır!

Amma bu yerdə bir "əmma" da çıxdı ortalığa. Özü də elə bir "əmma" ki, onun haradan qaynaqlandığını da elə bəri başdan deyəcəyəm - nə qədər təəccüblü görünsə də, görünməsə də Ermənistandan!

Fəqət məğzə keçənə qədər bir məlumatı da diqqətə çatdırım ki, BMT-nin və dünyanın önəmli hesablama mərkəzlərinin verdikləri birgə rəyə görə planetin 8 milyardıncı sakini Filippinin paytaxtı Manilada, 15 noyabr tarixində, saat 01.29 radələrində dünyaya göz açıb. Özü də həmin körpə qız uşağıdır. Artıq qızcığaza ad da qoyulub - Venis Mabansaq. Venisin anası isə KİV-lərə açıqlamasında deyib ki, o qızının planetin 8 milyardıncı sakini olmasından hədsiz sevinc hisslərinə qapılıb və özünü çox xoşbəxt hiss edir.

Üstəlik, planet sakinlərinin real zamanda hesablamasını aparan countrymeters resursunun digər məlumatına görə, yeni 8 milyardıncı sakinin dünyamıza göz açdığı vaxtdan saatlar sonra planet əhalisinin sayı durmadan artıb və bu say 8 milyard 50 milyona çatmaq üzrədir. Hazırda planetimizdə kişilərin də sayı qadınlardan çoxdur - kişilər 50,5%-i qadınlar isə 49,5%-i təşkil edirlər. Planetimizin ən sıx əhali yaşayan ölkələri isə Çin, Hindistan və ABŞ-dır. Və bütün bu statistik rəqəmlər də öz yerində. "Əmma", sən saydığını say, gör ermənilər nə sayırlar...???

Deməli, bütün dünya rəsmi statistikaya əsaslanan və BMT-nin də qəbul etdiyi reallığı qəbul etdiyi bir zamanda Ermənistanın BMT-dəki ofisi iki ayağını bir başmağa dirəyib ki, bəs planetin 8 milyardıncı sakini Geqarkunikin (Göyçə mahalının) Martuni şəhərindəki doğum evində "dünyaya göz açıbmış" (???!!!) Hələ bu harasıdır? Ermənilər bir ağızdan UNİSEF-in adından zorən dünya ictimaiyyətinə sırımağa cəhd ediblər ki, bəs həmin doğulan uşaq ermənidir, adı da Arpidir (?!). Yəni o boyda BMT-nin rəsmi statistik məlumatı qalıb bir yanda, ermənilər doğum evinin baş həkimi Artur Ovannisyanın iddiasını qaba ifadə etsək, dünya ictimaiyyətinin gözünə dürtüşdürməyə çalışırlar.

Yeri gəlmişkən, daha bir fakt budur ki, erməni mediası, sosial şəbəkələri hələ noyabrın 14-dən, yəni planetin 8 milyardıncı sakini dünyaya göz açmamışdan qabaq bar-bar bağırırdılar ki, həmin uşaq noyabrın 15-də məhz Ermənistanda doğulacaq. Nə deyəsən, əgər bir erməni ki, əstağfirullah, Tanrının da erməni olduğunu iddia edirsə, yaxud ermənilərin xristianlığı hətta İsa Məsihdən əvvəl qəbul etdiklərini deyirsə onda bu iddiadan həqiqətən də təəccüb etməyə dəyməzmiş. Bircə o qalır ki, Allah bu məxluqata ağıl verməyinə versin, amma həmin məxluqat ki, o ağılı qəbul etmirsə daha nə edirsə etsin, bizim Allahın işinə qarışacağımız yoxdur ermənilərdən fərqli olaraq. Məsələn, Allah istəsə bəlkə planetimiz, eləcə də bəşər övladı ona layiq olmayan belə ziyankar, təhlükəli və parazit canlılardan birdəfəlik qurtulmuş olar. Üstəlik, dünya millətləri də artmağa davam edər - 9, 10, 11... milyardıncı sakinlər insanlıq aləminə könül açan, xoş ovqatlı bəşəriyyət rəngləri qatarlar.

Sonda isə ermənilərin zorən dünya ictimaiyyətinə dürtüşdükləri Arpiyə deyil, məhz Filippində yeni doğulmuş 8 milyardıncı planet sakini, qızcığaz Venisə başıbəlalı dünyamıza xoş gəldin deməklə gələcəyimizə ümidlə baxmağa davam edirəm...

# CityNet-in yenilənmiş məhsulları ilə daha sürətli internet

**Abunəçilərinə təqdim etdiyi yüksək sürətli internet və keyfiyyətli TV xidməti ilə daima fərqlənən CityNet indi yeni məhsulları ilə daha üstün sürət və xidmət keyfiyyəti təqdim edir.Belə ki, CityNet artıq üç tarif paketindən ibarət olan məhsulları ilə abunəçilərə daha sürətli və əlverişli xidmət təqdim etməyə başlayır.**




Abunəçilər birinci tarif paketində 40 mbit/s sürətli interneti sadəcə 17.99 AZN-ə əldə edə bilər. Həm İnternet, həm də TV xidmətini özündə əks etdirən ikinci tarif paketində 50 mbit/s sürətli internet və 240 TV kanal birlikdə istifadəçilərə sadəcə 27.99 AZN-ə təqdim olunur. Vahid paketdə olan üç xidmət - 100 mbit/s internet, 240 TV kanal və ev telefonu xətti xidməti isə CityNet tərəfindən abunəçilərə sadəcə 37.99 AZN-ə təqdim olunur.

Beləliklə, abunəçilərin daha yüksək sürətli internet xidməti ilə təmin edilməsi, müştəri məmnuniyyətinin yüksəldilməsi və göstərilən xidmət keyfiyyətinin artırılmasını hədəfləyən CityNet əvvəlki qaydada 9 deyil, sadəcə 3 tarif paketində abunəçilər üçün daha sadə və üstün imkanlar yaradır. Qeyd edək ki, CityNet şirkəti yenilənmiş məhsullarını bu aydan etibarən abunəçilərə təqdim edir.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir. Qoşulma şərtləri, yeni və mövcud tariflər, kampaniyalar, həmçinin texniki dəstək üçün *1177 və (012) 5377777 nömrələri ilə əlaqə saxlamaq kifayət edir. Xidmətin hər hansı ünvanda mövcudluğunu şirkətin veb saytından və ya müştəri xidmətlərinə müraciət etməklə yoxlamaq mümkündür. Xidmətlərə qoşulmaq üçün sadəcə zəng mərkəzinə zəng edib sifariş vermək kifayətdir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytından əldə etmək olar.

# Sosial-iqtisadi inkişaf prosesi: Növbəti 8 ildə bizi nə gözləyir?

**Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilib. Bu prioritetlər növbəti 8 ildə nələri nəzərdə tutur? Bu yazımızda əsas məqamları diqqətinizə çatdıracağıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" çərçivəsində hazırlanıb.

Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır.

Xarici təsirlərə dayanıqlıq sütunlarından birini dövlətin valyuta ehtiyatları, digərini isə intizamlı borclanma təşkil edir. Xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması üçün Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payı tədricən azaldılmalıdır. Məcmu borc makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinə xidmət etməlidir. Daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi-dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və stabil olması təmin edilməlidir. Belə bir sabitlik iqtisadiyyatda gözləntiləri yaxşılaşdırmalı, əhalinin yığımlarını dəyərsizləşmədən qorumalı və investisiyaları artırmalıdır. Qiymətlərin sabitliyi daha effektiv lövbər vasitəsilə təmin edilməlidir.

Davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Bu prioritet aşağıdakı üç məqsəd əsasında uğurla reallaşa bilər:

- inkişafdan hər bir vətəndaşın bəhrələnməsi;
- yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət;
- paytaxt və regionların tarazlı inkişafı.

## İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi

Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır. Ölkədə artan gəlirlər daha geniş iqtisadi imkanlar yaratmalı, bütün əhali qrupları üçün səmərəli məşğulluq və layiqli əməyə nail olunmalı, xüsusilə qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşmalıdır.

Məşğulluqda özəl sektorun payının artması üçün zəruri stimullar yaradılmalı, muzdla işləyənlərin sayında özəl sektor üzrə işəgötürənlərin payı üstünlük təşkil etməlidir.

İqtisadiyyatın davamlı inkişafı gəlirlərin ədalətli bölgüsünü təmin etməli, əhalinin aşağıgəlirli təbəqəsinin sosial-iqtisadi rifahını artırmalıdır. Qeyri-formal məşğulluğun həcmi müəyyənləşdirilməli və qarşısının alınması üçün kompleks tədbirlər həyata keçirilməli, gəlirlərin leqallaşdırılması istiqamətində işlər görülməlidir.



## Yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət

Ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalmalıdır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır.

Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndirilməlidir. Bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunmalıdır. Pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığı gücləndirilməli, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyi artırılmalıdır.

Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün tələb olunan sosial reabilitasiya infrastrukturu əlçatan olmalı, bu şəxslərin məşğulluğuna dəstək proqramları genişləndirilməli, sosial təminatı gücləndirilməlidir. Sosial cəhətdən həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən, onlara bərabər iştirak imkanları yaradan sosial xidmətlər sistemi təmin olunmalıdır.

## Paytaxt və regionların tarazlı inkişafı

Ötən dövrdə regionlarla müqayisədə ölkəmizin paytaxtı daha sürətlə inkişaf edib. Uzunmüddətli dövrdə əsas məqsəd regionların inkişafının paytaxtın inkişaf səviyyəsinə uyğunlaşdırmaqdır. Bunun üçün regionlarda zəruri olan bütün iqtisadi və sosial infrastruktur yaradılıb.

Regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün mövcud iş qüvvəsi və bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilməlidir. Regionların sürətli inkişafı insanların keyfiyyətli iqtisadi imkanlara və fiziki infrastruktura çıxışı ilə müşayiət olunmalıdır. Regionlar paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olmalıdır. Bu, regionların milli gəlirdə payının artırılmasını təmin edəcəkdir.

## Rəqabət mühiti və innovativ yanaşma

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artıb. Perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaq.

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir. Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı üç məqsədə nail olunmalıdır:

- XXI əsrin tələblərinə uyğun təhsil;
- yaradıcı və innovativ cəmiyyət;
- vətəndaşların sağlam həyat tərzi.

Dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömürboyu təhsil"ə xüsusi önəm verilməlidir. Erkən və məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələlərlə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir.

İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır.

Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir.

## Vətəndaşların sağlam həyat tərzi

Vətəndaşların uzunömürlülüyü və sağlam həyat tərzi təmin edilməlidir. Bu, vətəndaşların məhsuldar fəaliyyəti və sosial rifahının artırılması üçün mühümdür. Sağlamlıq və uzunömürlülük ölkədə səhiyyə sisteminin keyfiyyətindən birbaşa asılı olacaqdır. Müasir innovasiyaların səhiyyədə tətbiqi sahəsində yüksək nəticələr əldə edilməklə, keyfiyyətli səhiyyə xidmətlərinin milli gəlirin yaranmasında payı artırılmalıdır. Keyfiyyətli səhiyyə və sağlam həyat tərzi hesabına əhalinin orta ömür müddətinin artımına nail olunmalıdır.

Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir.

Ölkədə keyfiyyətli və təmiz ekoloji mühit qorunmalı və resurslardan səmərəli istifadə təmin edilməlidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılmalıdır. Bu məqsədlə ölkədə ümumi ərazidə yaşıllıqların payı artırılmalıdır.

İqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Ölkədə yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslarımız bərpa edilməlidir. Ölkənin keyfiyyətli suya tələbatı su resurslarından səmərəli istifadə etməklə ödənilməlidir.

Strateji dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə xüsusilə daha çox artacaqdır. Bunu nəzərə alaraq, ölkədə enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməlidir.

İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcəkdir.

***Elçin***

SON SƏHİFƏ
SƏS
16 noyabr
2022-ci il

## BAXIŞ BUCAĞI

# Şəkərsiz şirin həyat...



Yaşamaq gözəldir, deyirlər. Həm də həyat çox şirindir. Bunları yaşadıqca duyur, hiss edirik. Bəli, həyat şirindir, yaşamaq gözəldir. Lakin o zaman gözəldir ki, onu sağlam şəkildə yaşaya, bütün gözəlliklərini duya bilirsən. Səhhətində nə isə problem olan insan xəstə olduğu müddətdə yalnız öz dərdləri, ağrıları ilə baş-başa qalır. Onun həyatın gözəlliklərini duymağa nə zamanı, nə həvəsi, nə də marağı olur. Səhərdən axşamadək ağrıları, dərman qəbulu, pəhriz yeməkləri ona günəşin doğma və qürubа enmə vaxtlarını unudurur. Gecələrin yaraşığı, gözəlliyi olan yuxu isə ərşə qalxdığından gecələr ona gözəl yox, günün ən ağır, dözümsüz anı kimi gəlir. Odur ki, bu həyatın gözəlliyini duymaq istəyiriksə, birinci növbədə sağlamlığımızın qeydinə qalıb, xəstələnməməyə çalışmalıyıq. Məhz bu halda həyat gözəl və şirindir.

### 300 minədək...

14 noyabr-bu gün Ümumdünya Diabet Günüdür. Bu gündə ölkəmizdə artıq sayı 300 minədək olan şəkərli diabet xəstələrinin də payı var. Çünki onlar hansısa səbəblərdən artıq bu xəstəliyin daşıyıcılarıdırlar. Bəzən sadəcə şəkər xəstəliyi adlandırdığımız bu xəstəlik hər il dünyada təxminən bir milyon insanın ölümünə səbəb olan, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi böyük vəsait tələb edən xroniki, həm də sürətlə artan bir xəstəlikdir. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, əgər 2019-cu ildə dünyada şəkər xəstələrinin sayı 463 milyon nəfər idisə, hazırda bu rəqəm 537 milyondur. Statistik məlumatlar göstərir ki, təəssüf ki, Azərbaycanda da diabet xəstələrinin sayının artması müşahidə olunur. 2017-ci ildə müalicə-profilaktika müəssisələrinin qeydiyyatında, təqribən, 243 min diabet xəstəsi olduğu halda, hazırda bu rəqəm 300 minə yaxındır. Şəkərli diabet digər xəstəlikləri kəskinləşdirə, ana və uşaq sağlamlığına mənfi təsir göstərə bilir. Bu xəstəliyin yüksək artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də qabardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib.

2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, 2007-ci ildən etibarən hər il noyabrın 14-ü BMT-nin Ümumdünya Diabet Günü kimi hesab olunur. Bu qətnamənin əsasında dövlətlər ilk dəfə olaraq, qeyri-infeksion xəstəlik olan diabeti dünya miqyasında sağlamlığa ciddi təhlükə mənbəyi sayaraq, İİV/QİÇS, vərəm, malyariya kimi infeksion xəstəliklərlə eyni səviyyədə qəbul etdilər. Qətnamə BMT-yə üzv dövlətləri bu günü təsdiq etməyə, həmçinin bütün millətləri diabetin qarşısını almaq və müalicə etmək üçün milli siyasət oriyentasiyasını hazırlamağa dəvət edib.

Bu faktları sadalamaqda məqsədim yuxarıda da vurğuladığım kimi, şəkərli diabetin adi yox, ciddi xəstəlik olduğunu bir daha nəzərə çatdırmaqla bu xəstəliklə hər birimizin mübarizə aparmalı olduğunu anlatmaqdır. 300 min heç də kiçik rəqəm deyil. Hələ bu rəqəmin 1800-nün uşaq və yeniyetmələr olduğunu nəzərə alsaq, bu, daha qorxuludur və həyəcan təbilinin çoxdan çalınmalı olduğunu göstərən faktdır.

### Şəkərli acı həyat...

Bəlkə də çoxları mənimlə eyni fikirdə olar ki, bütün zamanlarda "şəkər xəstəliyi" deyiləndə ağlımıza çox da təhlükəli olmayan xəstəlik gəlib. Bu səbəbdən də ona adi bir xəstəlik kimi baxmışıq. Və bu adiliyin səbəbi isə fikrimcə, elə "şəkər" sözündən qaynaqlanıb. Çünki şəkər şirin deməkdir. Şirin isə düşüncələrimizdə təbii ki, müsbətlər sırasındadır.

Xəstəlik ağrı-acıdır, əzabdır. Acı dərmanlar, xəstəxanalarda uzun-uzadı müalicə almaq, aylar, illərlə yataqda qalmaqdır. Lakin biz şəkər xəstələrini adətən ayaq üstündə görmüşük. Elə buna görə də həm bu xəstələrin özləri, həm də yaxınları ona adi xəstəlik kimi baxırlar. Bəs bu xəstəlik nə edir? Ona adi baxdıqca öz yerini daha da möhkəmləndirir. Hələ minlərlə qapılar döyüb, çağırılmamış qonaq kimi evlərə soxulub, yuxarı başa keçərək qonaq qismindən ev sahibliyi qisminə də keçir. Biz ona adi bir xəstəlik kimi baxdıqca o, bütün bədənimizə hakim kəsilir. Bir də baxırıq ki, artıq bu "şirin" xəstəlik acıdan başqa bir şey vermir bizə. Bir də baxırıq ki, biz artıq süfrəyə düzülən bütün nemətlərə əl uzada bilmirik. Bütün ədviyyatlarla hazırlanan yeməkləri yeyə bilmirik. Bir də baxırıq ki, bu "şirin" xəstəlik şirin olan hər şeyi əlimizdən alıb, azşəkərli məhsullarla qidalanmağa vadar edib bizləri. Pəhriz saxlamağa, günün müəyyən saatlarında yeyə bilməyə, yanımızda şəkərimizi ölçən cihaz gəzdirməyə vadar edib bizləri.

Hələ ilk zamanlarda məhz bunları müşahidə etsək də, elə bütün bunlara riayət etməməklə qarşıda gözləmədiyimiz yataq xəstəsinə çevriləcəyimizi, bu şirinliyin bizi daha hansı acılarla üz-üzə qoyacağını heç ağlımıza belə gətirmədən yaşayırıq. Yaşaya-yaşaya da bu xəstəliyin bir gün sağalması mümkün olan digər xəstəliyimizi acımıza, kədərimizə çevirəcəyini düşünmürük. Düşünmürük ki, şəkərli diabet xəstəsi olmasaydıq, filan əməliyyatımız, filan müalicəmiz çox uğurla nəticələnə bilərdi və biz həyatda qala-yaşaya bilərdik.

### Şəkərin ən yaxın dostu-stress

Dünyada 537 milyon insan şəkər xəstəliyindən əziyyət çəkir, dedik. Minlərlə insan isə bu xəstəliyi daşıdığından xəbərsizdir. Yaşayır, gəzir-dolaşır, yeyir-içir, lakin hələ də şəkər xəstəsi olduğu ağlına gəlmir. Aradabir baş ağrılarını, baş gicəllənmələrini, ürək bulanmalarını, qan təzyiqinin enmə-qalxmasını əsassız bir şey hesab edərək yaşayır. Bunlar üçün həkimə müraciət etmir, hansı ki, həkimə getməklə şəkərli diabet olduğunu bilər və dərhal onun qarşını almaqla ağırlaşmalara doğru yola çıxmaz.

Biz həmişə düşünmüşük ki, şəkər xəstəliyinin başlıca səbəbi şəkəri qidalarla bağlıdır. Lakin düşünmürük ki, xeyr, əslində şəkərli qidalarla deyil, həmin şəkərli qidaları yaxşı həzm edə bilməyən orqanlarımızla bağlıdır. Onların xəstələnməyə başlamasından xəbərsiz olmağımız şəkərli diabetin orqanizmimizə qanaq gəlməsi ilə nəticələnir. Ümumilikdə isə mütəxəssislərin fikrincə, şəkər xəstəliyi, şəkərli diabet - şəkərin qanda xroniki artımıdır. Diabetlə əlaqəli ağırlaşmaların hamısının səbəbi qlükozanın qanda yüksək olmasıdır. Şəkər xəstəsi qanda şəkərin miqdarını idarə edə bilərsə, şəkərli diabet xəstəlik yox, həyat tərzinə çevrilər ki, bununla da ağırlaşmaların qarşısını almaq olar. Buradan isə yenə də o qənaətə gəlmək olur ki, bəli, insan şəkərli diabet xəstəsi olduğunu bilərsə, qanında qlükozanın artmasının qarşısını ala bilər. Bu isə tək qidalanmaqla deyil, ümumi həyat tərzi ilə daha çox bağlıdır. Onlardan birini-stressi vurğulamaqla demək olar ki, bütün xəstəliklər kimi, şəkərli diabetin də ən yaxın dostu stresdir. Bu, şəkər xəstəliyi ilə bağlı ağıla gələn bəlkə də ən son fikir olsa da, lakin əslində xəstəliyin ilkin yaranma səbəbidir. Belə isə stressdən, həyacandan, əsəbiləşməkdən kənar olmaq lazımdır. Çünki, bunlar orqanizmdə müəyyən xəstəliklərin yaranma səbəbidir.

### Şəkərsiz şirin həyat...

Biz həyat tərzimizi düzgün qura bilməyəndə bir çox xəstəliklərin qurbanı oluruq, bəli. Şəkərli diabet kimi. Oluruq bu xəstəlikdən asılı. İki tipdə olan bu xəstəliyin daşıyıcısı, əzablarını yaşayan, həyatın şirinliyindən məhrum olanlara çevrilirik. Ya birinci tip diabetlər üçün vacib olan gündəlik insulin inyeksiyalar, ya da ikinci tip diabetlərin istifadə etdiyi həblər vasitəsilə qanımızda qlükozanı norma çərçivəsində saxlamağa məcbur oluruq.

Beləliklə dərman preparatlarından asılı vəziyyətə düşürük. Onları həmişə yanımızda gəzdirməyə məcbur oluruq. Çünki onlarsız özümüzü yaxşı hiss etmirik, hətta yemək yeməyə belə qorxuruq ki, birdən şəkərimiz qalxar. Bəzən isə ya yanımızda götürməməyimiz, ya da vaxtında qəbul etməməyimiz səbəbindən şəkərimiz qalxır, özümüzü piss edirik və bu, bir günümüzü əlimizdən alır. Həyatın gözəl bir gününü yaşaya bilmirik. Baş ağrıları, ürək göyüntüləri ilə günümüzü başa vurmaq məcburiyyətində qalır, səhəri gün isə bunun halsızlığını yaşamalı oluruq.

Birinci, düzgün həyat tərzi keçirməklə, evdənkənar qidalarla qidalanmamaqla bu xəstəliyin qarşısını ala bilərik. Ən əsası isə stressdən uzaq olmaqla şəkərli diabeti özümüzdən uzaqlaşdıra, bununla həm özümüzü, həm ailə üzvlərimizi qorumuş olarıq. Bu halda həyatın gözəlliyini də dərindən duya-duya yaşaya bilərik.

Həyat gözəldir... Sağlam yaşadığımız müddətdə bunu dərk etmək istəməsək də, "belə də olmalıymış",- deyə düşünsək də, xəstələnəndə tam mənası ilə anlayırıq. Anlayırıq ki, həyatı xəstəliyin verdiyi ağrı-acı ilə yaşamaqdan çətin heç nə yoxdur. Anlayırıq ki, yaşadığımız gün deyil, ağır, ötüb-keçməyən ildir, əsrdir.

Odur ki, bütün bəşəriyyət sağlam olmaq, sağlam yaşamaq üçün mübarizəyə qalxmalıdır. Hər şeyi bir kənara qoyub sağlamlığımız üçün bütün maneələri əllərimizlə özümüzdən kənarlaşdırmalıyıq. Təbiətdə, ətraf aləmdə, iş yerində, evdə sadəcə ruhumuzu oxşayan, sağlamlığımıza xidmət edəcək anlarla yaşamalıyıq. Həyat məhz bu zaman öz gözəlliyi ilə bizim ola bilər. Bu gün haqqında söhbət açdığımız şəkərli diabet xəstəliyinin də həyatımızın gözəlliyinə kölgə saldığını nəzərə alıb onunla mübarizə aparmaq və şəkərsiz şirin həyatın sahibi olmaq diləyilə...

***Mətanət Məmmədova***

## BAŞSAĞLIĞI

Vüqar Tağıyev, Orxan Orucov, Akif İmanov, Məmmədhəsən Məmmədov Şaiq Məmmədova anası

**Zöhrə Rəcəb qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***



# Dünya əhalisinin sayı 8 milyard nəfərə çatdı...

**Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Əhali Prospekti hesabatına görə, noyabrın 15-də dünya əhalisinin sayının səkkiz milyardı keçəcəyi bildirilir. Təbii ki, Birləşmiş Millətlər Təşkilatı bunu elə də bir mühüm hal kimi dəyərləndirmir. Bu da başa düşüləndir. Çünki bu qədər insanı yedirmək, içirmək, geyindirmək elə də asan məsələ deyil.**

Qeyd edək ki, SİA-nın əldə etdiyi məlumata görə, Birləşmiş Millətlər Təşkilatı dünya əhalisinin artımı tibbin inkişaf, kanalizasiya sahəsindəki irəliləyişlər, içməli suya çıxış imkanlarının artması və peyvəndin geniş əhatə dairəsi ilə əlaqələndirir. Yeri gəlmişkən onu da qeyd edək ki, son 200 ildə dünya əhalisi 8 dəfə artıb. Əgər 1900-cü illərin əvvəllərində planetdə cəmi bir milyard yarım insan var idisə, 2000-ci illərin əvvəllərində artıq bu say altı milyard, 2011-ci ildə isə yeddi milyarda qədər artıb. Son 11 ildə bu, daha bir milyard nəfər çoxalıb.

Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, dünya əhalisi 2037-ci ildə doqquz milyarda, 2058-ci ildə isə 10 milyarda çatacaq. 2080-ci illərdə əhalinin sayı 10,4 milyarda çata bilsə də, amma bəzi iddialara görə, 2100-cü ilə qədər bu səviyyədə qala bilər.

Qeyd edək ki, bu gün əhalinin əsas hissəsi Çin və Hindistanda yaşayır. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, dünya əhalisinin təxminən 36 faizi, yəni təxminən üç milyard insan bu ölkələrdə məskunlaşıb.

***Ağasəf Babayev***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**